RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 244 (9699) 5 noyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Zəfərin reallıqları

## - polad iradə, güclü dövlətçilik, etibarlı təhlükəsizlik sistemi

Azərbaycan tarixində yeni, parlaq səhifə açan, bugünkü və gələcək nəsillər üçün qürur, iftixar mənbəyi olan möhtəşəm Zəfərimizin ildönümü ərəfəsindəyik. Tariximizdə bənzəri olmayan bu Qələbənin sevinc hisslərini bizə yaşadan möhtərəm Ali Baş Komandanımız cənab İlham Əliyevə, Onun qüdrətinə, yorulmaz səylərinə, haqq işimizə ürəkdən inanan xalqımıza, qəhrəman Ordumuza minnətdarlıq duyğuları ilə bu önəmli məqamı vurğulamaq istərdim.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmini həm də 31 il öncə - tariximizin ən çətin və məşəqqətli dövründə meydana çıxan Qurtuluş missiyasının tam reallaşmasının yekun hesabatıdır. 15 iyun 1993-cü ildən başlanan Qurtuluş Missiyası Müzəffər Ali Baş Komandanın 15 oktyabr 2023-cü ildə Xankəndidə Azərbaycan bayrağını ucaltması ilə öz hədəflərinə çatmış oldu.

Cənab Prezident uzun onilliklər, hətta əsrlər boyu xalqımızın əsas təhlükəsizlik, siyasi, iqtisadi, sosial, mənəvi problemlərini təşkil edən, dövlətin müqəddəratına təhdid yaradan amilləri zərərsizləşdirdi, xalqımızın pozulmuş haqqını, tarixi ədaləti bərpa etdi.

Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıqların nəticəsi olaraq, bu gün ölkəmizin təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətində də davamlı tədbirlər həyata keçirilir, yeni fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə hazırlanan kompleks tədbirlər və fəaliyyət proqramı-strategiyası Azərbaycanın təhlükəsizliyinin etibarlı təmini faktorudur.

Məlum xarici dövlətlərin və təsisatların Ermənistan ərazisi vasitəsilə yeni təhdid ocaqları yaratmağa cəhd göstərmələri, eləcə də digər bu kimi proseslərin son aylarda daha da geniş vüsət alması bölgəmizdə həssas olan vəziyyəti daha da gərginləşdirir.

Belə bir revanşist siyasət qarşısında Azərbaycan öz təhlükəsizlik sistemini ardıcıl gücləndirir, hər cür xarici təsirə qarşı qısa müddətdə effektiv cavab-nəticə verəcək müdafiə sistemini və zərbə strategiyasını artıq tam formalaşdırıb. Həm də bu, dəfələrlə uğurla sınaqdan çıxarılıb.

Azərbaycan Respublikası onun təhlükəsizliyinə qarşı yönələn hər bir təzyiq və təsir cəhdini yerindəcə dəf etmək iqtidarındadır. Erməni revanşistləri ilə yanaşı, bölgədə Azərbaycanın müstəqil iradəsini və liderliyini qəbul etməyən bəzi iri dövlətlər ötən illərin təcrübəsindən düzgün nəticə çıxarmalı, nəyin necə və nə vaxt ediləcəyini dəqiq bilən strategiyanın və "Dəmir Yumruğ"un gücünü heç vaxt unutmamalıdırlar. Bilməlidirlər ki, regionda yaradılacaq hər hansı hərbi qarşıdurma, Azərbaycanın zorən yeni münaqişəyə cəlb edilməsi onun üçün daha ağır nəticələrə səbəb olar.

→ 4

# COP29-a yüksək səviyyədə hazırlıq görülüb

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.

→ 2

# Əsrlərə bərabər 44 gündə yazılan möhtəşəm Zəfər

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi milli inkişaf siyasətini əzmlə həyata keçirən Prezident İlham Əliyev bu kursun prioritetinə uyğun olaraq Azərbaycan dövlətinin ərazi bütövlüyünün, suverenliyinin bərpasını ən ali məqsəd kimi müəyyənləşdirmişdi. "Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq" - Azərbaycan Prezidenti Böyük Qələbədən sonrakı çıxışlarının birində vurğulamışdı.

Torpaqlarımızın işğaldan azad ediməsi, ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin bərpası məqsədi həm ardıcıl şəkildə aparılan ordu quruculuğu, həm də siyasi, iqtisadi, sosial-mədəni sahələrdə həyata keçirilən geniş və coxşaxəli tədbirlərlə davamlı şəkildə dəstəklənirdi. Prezident İlham Əliyev xalqımızın doğma yurdlarını heç bir zaman düşmənə güzəştə getməyəcəyini, bu məqsədə çatmaq üçün bütün resurslarını səfərbər edəcəyini çıxışlarında mütəmadi bəyan edirdi.

Ordumuzun qüdrəti, döyüş ruhu getdikcə artırdı. Azərbaycanın iqtisadi uğurları bu sahənin quruculuğuna ayrılan vəsaitlərin davamlı artırılmasına şərait yaradırdı. Müasir texnologiyalarla təchiz edilən silahlı qüvvələrimiz, həm yerli hərbi sənaye kompleksi, həm də müxtəlif ölkələrlə bağlanmış hərbi əməkdaşlıqlar sayəsində müasir silah-sursat və texnikalarla təmin olunurdu. Getdikcə güclənən ordumuz düşmən üzərindəki gücünü, üstünlüyünü hələ 2016-cı ildə 4 günlük Aprel döyüşlərində və 2018-ci ilin Günnüt əməliyyatında bütün dünyaya nümayiş etdirmişdi.

→ 6

# İvana VOJİNOVİÇ: "Azərbaycanın təmiz enerjiyə keçidi digər ölkələr üçün nümunə ola bilər"

*Donja Qoritsa Universitetinin İqlim Dəyişikliyi Mərkəzinin direktoru və Monteneqro hökumətinin ətraf mühit üzrə sabiq baş direktoru:*

Azərbaycan xüsusən günəş və külək enerjisi sahəsində bərpaolunan enerji mənbələrinin əhəmiyyətli bir ixracatçısı ola bilər. Ölkənin iqlimi və coğrafi üstünlükləri onu bərpaolunan enerji mənbələrinin layihələri üçün ideal yerə çevirir. Azərbaycan artıq bu sahədə irəliləyiş əldə edir, beynəlxalq sərmayələri cəlb edir və təmiz enerji istehsalı ilə bağlı iddialı hədəflər qoyur. "Yaşıl enerji" infrastrukturunu genişləndirməklə Azərbaycan bərpaolunan elektrik enerjisi ilə təkcə ölkə daxilində deyil, həm də qonşu ölkələri təmin edə, regional enerji keçidinə töhfə verə bilər. Bu dəyişiklik təkcə Azərbaycanın iqlimlə bağlı öhdəliklərini yerinə yetirmir, həm də Avropa və Asiya üçün təmiz enerji təminatçısı kimi onun geosiyasi əhəmiyyətini artırır.

Azərbaycanın bərpaolunan enerji potensialı qlobal enerji sisteminin sıçrayış texnologiyaları və ya gələcək sütunları kimi qiymətləndirilən təmiz hidrogen və enerjisaxlama texnologiyalarının inkişafı üzrə strateji təşəbbüsləri ilə dəstəklənir. Azərbaycanın təmiz enerjiyə keçidi bərpaolunan mənbələrdən istifadə etmək istəyən digər qalıq yanacaqdan asılı olan ölkələr üçün nümunə ola bilər.

→ 9

◆ Bakı COP29-a hazırlaşır



# "Yaşıl paytaxt"ın yeni abadlıq ünvanı

→ 8

# Tramp, yoxsa Harris?!

## ABŞ-də prezident seçkiləri keçirilir



1845-ci ildən bəri ölkədə prezident seçkiləri həmişə noyabrın ilk çərşənbə axşamı keçirilir.

Bu il proses noyabrın 5-nə təsadüf edib. Prezident seçkilərində səsvermə seçki məntəqəsində şəxsən və ya poçt vasitəsilə ümumxalq səsverməsi günü və ya əvvəlcədən həyata keçirilə bilər. Xaricdə xidmət edən hərbi qulluqçular da əvvəlcədən səs verirlər.

ABŞ prezidentliyinə iki əsas namizəd var: keçmiş dövlət başçısı və Respublikaçılar Partiyasının namizədi 78 yaşlı Donald Tramp və hazırkı vitse-prezident, Demokratlar Partiyasının namizədi Kamala Harris (60 yaş).

Əvvəlcə Prezident Co Bayden Demokratlar Partiyasından namizəd olmalı idi, lakin Trampla uğursuz iyun debatından sonra o, namizədliyini geri götürüb.

→ 12

# COP29-a yüksək səviyyədə hazırlıq görülüb

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olub


















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma burada yaradılan şərait barədə ətraflı məruzə edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolfmobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxıblar. Dövlət başçısı və birinci xanım COP29-un rəsmi Mavi Zonasında açılış mərasimində Milli bəyanatların səsləndiriləcəyi "Nizami" Plenar İclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları ilə tanış olublar. Qeyd edilib ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var. Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək Mavi Zonada hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.

Dövlət başçısı və birinci xanım akkreditasiya və qeydiyyat prosesləri ilə tanış olublar. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verilib, tədbirə böyük marağın olduğu bildirilib.

Digər ölkələrin və tərəflərin pavilyonlarının yerləşdiyi zonaya baxan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış olub, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq Yaşıl Zonada olublar, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik Mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxıblar. Yaşıl Zonanın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verilib.

## C.H.Musayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2024-cü il*

## Y.A.Ömərovun Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yaşar Adil oğlu Ömərov Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 470** **QƏRAR** **Bakı şəhəri, 1 noyabr 2024-cü il**

### "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594; Azərbaycan Respublikasının 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 1.3-cü bəndinin ikinci abzasında ", "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs və ya İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "və ya Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I); 2024, № 5 (II kitab), maddə 592) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin "Komissiyanın üzvləri: "hissəsinin on üçüncü abzasından nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İcraçı direktoru.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 294 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.3-cü bəndinin birinci cümləsində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725 (Cild I); 2024, № 1, maddə 77; Azərbaycan Respublikasının 2024-cü il 18 sentyabr tarixli 427 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 6.1.8-ci yarımbəndində və 17.3-cü bəndində (hər iki halda) ismin müvafiq hallarında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507 (Cild I) ilə təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in 6.7-ci bəndinin ikinci cümləsində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" sözləri ilə əvəz edilsin.

6. "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789 (Cild I) 2-ci hissəsinə "Agentliyi" sözündən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Dini Liderlərin Qlobal Bakı Sammitinin iştirakçıları Fəxri xiyabanı ziyarət ediblər

**Dini Liderlərin Qlobal Bakı Sammitinin iştirakçıları noyabrın 4-də Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə gül dəstələri düzülüb.

Qeyd edək ki, noyabrın 5-6-da keçiriləcək Dini Liderlərin Qlobal Bakı Sammitində 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri iştirak edəcəklər.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 471** **QƏRAR** **Bakı şəhəri, 1 noyabr 2024-cü il**

### "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1559 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"nın 3.14-cü bəndində "saxlanılır" sözü "mühafizə edilir" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 104 (Cild I) ilə təsdiq edilmiş "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları"nın 2.2.4-cü yarımbəndində "saxlanılmasını" sözü "mühafizə olunmasını" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 oktyabr tarixli 448 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1.1-ci yarımbəndinin 1-ci abzasında və 4.1.4-cü yarımbəndində "saxlanılan" sözü "mühafizə edilən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Vatikan rəsmisi ilə Heydər Əliyev Fondunda görüş keçirilib






**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti kardinal Klaudio Qucerotti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və Vatikan arasında mövcud əlaqələr, Heydər Əliyev Fondu ilə əməkdaşlıq çərçivəsində layihələr müzakirə olunub.

Klaudio Qucerotti Heydər Əliyev Fondunun Vatikandakı layihələrini yüksək qiymətləndirib və daimi dəstəyə görə fondun prezidenti Mehriban Əliyevaya Roma Papası Fransiskin xüsusi minnətdarlığını çatdırıb.

Görüşdə Heydər Əliyev Fondunun Vatikanda katakombaların bərpası, Vatikan muzeyi və Apostol kitabxanası ilə sıx əməkdaşlığı, arxiv əlyazmalarının rəqəmsallaşdırılması, Vatikan arxeoloqlarının Azərbaycana tarixi və dini abidələrin bərpası məqsədilə tanışlıq səfəri və təcrübə mübadiləsi xüsusi qeyd olunub, gələcəkdə yeni layihələrin icrasının vacibliyi vurğulanıb.

Kardinal Qucerotti bu tədbirləri yüksək qiymətləndirərək Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda yeni katolik kilsəsinin tikintisinin ölkəmizin multikultural siyasətinin bariz nümunəsi olduğunu bildirib.

Qonaq dünyada dini zəmində baş verən münaqişələrin genişlənməsi fonunda Azərbaycan hökumətinin həyata keçirdiyi multikulturalizm siyasəti, ölkədə müxtəlif dinlərin sülh şəraitində yaşaması, dini etiqad azadlığının sülhə ən böyük töhfə olduğunu vurğulayıb.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov fondun prezidenti Mehriban Əliyevanın Vatikanla münasibətlərə hər zaman xüsusi önəm verdiyini deyib və gələcəkdə də bu əməkdaşlığın inkişaf etdiriləcəyinə əminliyini ifadə edib. Vatikan şəhər dövləti üzrə qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında həyata keçiriləcək bərpa işləri ilə bağlı imzalanmış əməkdaşlıq müqaviləsi tərəflər arasındakı sıx əməkdaşlığın göstəricisi kimi qeyd olunub.

Müqəddəs Taxt-Tacın nümayəndəsi Heydər Əliyev Fondu ilə gələcək layihələr sırasında Vatikanda Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi, sərgi və konsert proqramının təşkil edilməsi və müxtəlif sahələrdə mütəxəssislər arasında qarşılıqlı mübadilə aparılması təklifini də irəli sürüb.

Görüş zamanı Klaudio Qucerottiyə noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq işləri barədə də məlumat verilib. Qonaq COP29 ərəfəsində "Dünya dinləri yaşıl planet naminə" devizi altında keçiriləcək Dini Liderlərin Qlobal Sammitinin dinlərarası münasibətlərin daha da inkişafına və beynəlxalq konfransın uğuruna töhfə verəcəyinə əminliyini bildirib.

# Azərbaycan və İraq arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub

**Noyabrın 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İraq Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseyn arasında telefon danışığı olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Yaxın Şərqdə cari regional vəziyyət, bölgədə artan gərginlik, habelə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Fuad Hüseyn bölgədəki son inkişaflar barədə ətraflı məlumat verərək münaqişənin genişlənməsinin ciddi narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Qarşı tərəf bir neçə gün sonra ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) son hazırlıq işləri ilə bağlı məlumatlandırılıb, mümkün əməkdaşlıq sahələrinə toxunulub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti müzakirə edilib





**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın dəvəti ilə bu ölkədə səfərdədir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov "Slavin - İkinci Dünya müharibəsi abidəsi"ni ziyarət edib. Abidə önünə əklil qoyaraq həlak olanların xatirəsinə ehtiramını nümayiş etdirib. Bratislava şəhərində Azərbaycanın müdafiə naziri slovakiyalı həmkarı ilə görüşüb.

Görüşdən əvvəl təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Görüşdə Azərbaycan ilə Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər həmçinin hərbi, hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.



# Zəfərin reallıqları

## - polad iradə, güclü dövlətçilik, etibarlı təhlükəsizlik sistemi

**Dörd il öncə Vətən Müharibəsində qazandığı şanlı Zəfəri, bir il əvvəl isə ərazi bütövlüyünün tam təmini ilə Azərbaycan öz dövlətçilik tarixinin yeni mərhələsinə qədəm qoydu.**

**Müzəffər Ali Baş Komandanımızın qüdrətli Sərkərdəliyi ilə 44 günlük uğurlu hərbi əməliyyatın məntiqi davamı olan 23 saatlıq antiterror tədbirləri nəticəsində ölkəmizdə separatizm və münaqişə ocağı məhv edildi.**

Azərbaycan tarixində yeni, parlaq səhifə açan, bugünkü və gələcək nəsillər üçün qürur, iftixar mənbəyi olan möhtəşəm Zəfərimizin ildönümü ərəfəsindəyik. Tariximizdə bənzəri olmayan bu Qələbənin sevinc hisslərini bizə yaşadan möhtərəm Ali Baş Komandanımız cənab İlham Əliyevə, Onun qüdrətinə, yorulmaz səylərinə, haqq işimizə ürəkdən inanan xalqımıza, qəhrəman Ordumuza minnətdarlıq duyğuları ilə bu önəmli məqamı vurğulamaq istərdim. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmini həm də 31 il öncə - tariximizin ən çətin və məşəqqətli dövründə meydana çıxan Qurtuluş missiyasının tam reallaşmasının yekun hesabatıdır. 15 iyun 1993-cü ildən başlanan Qurtuluş Missiyası Müzəffər Ali Baş Komandanın 15 oktyabr 2023-cü ildə Xankəndidə Azərbaycan bayrağını ucaltması ilə öz hədəflərinə çatmış oldu.

Cənab Prezident uzun onilliklər, hətta əsrlər boyu xalqımızın əsas təhlükəsizlik, siyasi, iqtisadi, sosial, mənəvi problemlərini təşkil edən, dövlətin müqəddəratına təhdid yaradan amilləri zərərsizləşdirdi, xalqımızın pozulmuş haqqını, tarixi ədaləti bərpa etdi.

Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıqların nəticəsi olaraq, bu gün ölkəmizin təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətində də davamlı tədbirlər həyata keçirilir, yeni fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə hazırlanan kompleks tədbirlər və fəaliyyət proqramı-strategiyası Azərbaycanın təhlükəsizliyinin etibarlı təmini faktorudur.

Məlum xarici dövlətlərin və təsisatların Ermənistan ərazisi vasitəsilə yeni təhdid ocaqları yaratmağa cəhd göstərmələri, eləcə də digər bu kimi proseslərin son aylarda daha da geniş vüsət alması bölgəmizdə həssas olan vəziyyəti daha da gərginləşdirir.

Belə bir revanşist siyasət qarşısında Azərbaycan öz təhlükəsizlik sistemini ardıcıl gücləndirir, hər cür xarici təsirə qarşı qısa müddətdə effektiv cavab-nəticə verəcək müdafiə sistemini və zərbə strategiyasını artıq tam formalaşdırıb. Həm də bu, dəfələrlə uğurla sınaqdan çıxarılıb.

Azərbaycan Respublikası onun təhlükəsizliyinə qarşı yönələn hər bir təzyiq və təsir cəhdini yerindəcə dəf etmək iqtidarındadır. Erməni revanşistləri ilə yanaşı, bölgədə Azərbaycanın müstəqil iradəsini və liderliyini qəbul etməyən bəzi iri dövlətlər ötən illərin təcrübəsindən düzgün nəticə çıxarmalı, nəyin necə və nə vaxt ediləcəyini dəqiq bilən strategiyanın və "Dəmir Yumruğ"un gücünü heç vaxt unutmamalıdırlar. Bilməlidirlər ki, regionda yaradılacaq hər hansı hərbi qarşıdurma, Azərbaycanın zorən yeni münaqişəyə cəlb edilməsi onun üçün daha ağır nəticələrə səbəb olar.

Azərbaycanda təhlükəsizlik sistemində və hərbi sahədə həyata keçirilən tədbirlər, islahatlar davam edir və bütün bunlar da, şübhəsiz, Silahlı Qüvvələrin bütün növ qoşun birləşmələrinin maddi-texniki bazasının gücləndirilməsinə, şəxsi heyətin peşəkarlığının və döyüş ruhunun yüksəldilməsinə töhfələr verir. Hərbi üstünlüyümüzü şərtləndirən və möhkəmləndirən mühüm nailiyyətlər isə faktiki olaraq, Azərbaycanın Qafqazın ən böyük hərbi gücü və etibarlı təhlükəsizliyə sahib olma faktının isbatıdır.

Azərbaycan bölgənin yeni təhlükəsizlik, iqtisadi-sosial, siyasi, humanitar sistemini formalaşdıraraq, onun sabitlik və inkişaf istiqamətlərini müəyyənləşdirir. Son onilliklər ərzində dünyanın qaynar nöqtələri sırasında qeyd edilən Qafqaz bölgəsi Prezident İlham Əliyevin Zəfər missiyasının nəticəsində indi dayanıqlı təhlükəsizlik, davamlı inkişaf, etibarlı əməkdaşlıq ünvanına çevrilib.

Ötən əsrin 90-cı illərindən etibarən regionda törədilən qanlı savaşlar, beynəlxalq terrorizm, etnik separatizm, narkotiklərin qanunsuz dövriyyəsi və ümumiyyətlə, transmilli cinayətkarlığın ayrı-ayrı növlərinin cərəyan etdiyi acı gerçəklik də Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində sonlandırılıb. Müzəffər Ali Baş Komandanın müdrik siyasəti nəticəsində regionun beynəlxalq statusu dəyişib və bölgənin inkişafı, kommersiya cəlbediciliyi üçün yeni imkanlar açılıb. Təsadüfi deyil ki, son dörd il ərzində fövqəldövlətlərin və transmilli şirkətlərin müəyyənləşdirdikləri yeni enerji marşrutları, beynəlxalq və regional nəqliyyat-logistik dəhlizləri artıq Azərbaycandan keçməklə Qafqazı əhatə edir.

Bu müsbət geosiyasi, geoiqtisadi və qlobal təhlükəsizlik proseslərinin müsbət dinamikasını artırmaq, onların davamlılığını təmin etmək məqsədilə həyata keçirilən sülh missiyası dörd il öncəki uğurlu hərbi əməliyyatlar kimi qətiyyətli, ləyaqətli, ədalətli və şəffafdır. Əlbəttə ki, Azərbaycan savaşın qalibi və bölgənin hərbi güc mərkəzi statusundan bəhrələnərək, əlindəki real vasitələrlə məğlub Ermənistanı qalıcı sülhə, yeni sülh müqaviləsini imzalamağa məcbur edə bilər. Bunu həm beynəlxalq hüququn tələblərinə əsaslanaraq, həm də beynəlxalq təcrübədə olan onlarla fakta istinad edərək gerçəkləşdirmək iqtidarındadır.

Son onilliklərdə fövqəldövlətlərin Afrika, Asiya, hətta Avropa qitələrində "Qaliblər mühakimə olunmur" prinsipi ilə hansı "sülhyaratma" fəaliyyətləri göstərdiklərinə şahidik. Azərbaycan isə danışıqlar prosesində qalib ədasından uzaqdır. Problemin həlli qarşılıqlı etimad mühiti əsasında və Ermənistanın onu uğursuzluğa düçar edən yanlış xarici təsirlərdən yaxa qurtararaq, öz dövləti və xalqının gələcəyi baxımından düzgün qərar verməsindədir.

Sülh sazişini imzalamaq nə qədər əsasdırsa, onun real işləməsini və dayanıqlılığını təmin etmək bir o qədər vacibdir. Ermənistanla dövlət sərhədlərinin delimitasiya və demarkasiyası prosesində irəliləyişlərin müşahidə edilməsi və ümumi gedişat göstərir ki, Azərbaycanla Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar. Əgər rəsmi İrəvan onu növbəti məhvə sürükləyən havadarlarının ziyanlı təsirindən qurtulmağa özündə güc taparsa, iki dövlət arasında sülh sazişinin imzalanması mümkündür.

Yeri gəlmişkən, bir daha qeyd etmək istəyirəm ki, hələ 2023-cü ilin sentyabrından öncə və 23 saatlıq antiterror tədbirlərindən dərhal sonra Prezident cənab İlham Əliyev bölgədəki erməni sakinlərinin Azərbaycan dövlətinə reinteqrasiyası ilə bağlı konkret addımlar atdı. Onların ölkəmizin ərazisində Azərbaycan vətəndaşı kimi qalıb yaşamaları üçün gərəkli bütün tədbirlər görüldü. Bununla bağlı rəsmi qurumlar tərəfindən erməni sakinlərinin rahat müraciəti üçün müvafiq internet portalı belə yaradıldı və dinc əhalinin öz evlərində qalması üçün şərait formalaşdırıldı. Eyni zamanda Qarabag iqtisadi rayonunu öz arzusu ilə tərk etmək istəyən erməniəsilli şəxslərin sərbəst və maneəsiz şəkildə Ermənistana keçidinə təhlükəsiz şərait yaradıldı, onlar hətta nəqliyyat vasitələri və ərzaqla təmin edildilər.

Hərbi tədbirlər zamanı və erməni əhalisinin Qarabağı tərk etməsi prosesində mülki şəxslərə qarşı heç bir zorakılıq halı qeydə alınmayıb. Bu fakt BMT-nin üç missiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər beynəlxalq monitorinq mərkəzləri tərəfindən birmənalı olaraq, rəsmən etiraf olunub.

Nəzərə alsaq ki, münaqişə bölgələrində belə itkisiz proseslərə, adətən, rast gəlinmir. Yaxud da ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan ərazisində və Azərbaycanın Qarabağ bölgəsində törədilmiş soyqırımları, etnik təmizləmə, minlərlə insanın zorakılıqla öz doğma yurd-yuvasından köçürülməsi, maddi-mənəvi tarixi abidələrin və təbiətin talan edilməsi faktlarını yada salaq.

Bölgənin təhlükəsizliyini möhkəmləndirəcək və iqtisadiyyatı yüksəldəcək Zəngəzur dəhlizi ilə bağlı aparılan danışıqlarla paralel olaraq alternativ variantlar üzərində layihələrin həyata keçirilməsi də uzaqgörənliyin, müdrikliyin göstəricisidir. Qərb bölgələri ilə Naxçıvanın əlaqəsini yaradacaq, Zəngilandan Ordubadadək maneəsiz uzanacaq marşrutun əsas istiqaməti Ermənistan ərazisi olsa da, İran ərazisindən də kommunikasiya marşrutu üzrə işlər davam etdirilir. Regional və qlobal nəqliyyat-enerji tranzitlərinin şaxələndirilməsinə önəm verən ölkə Rəhbərimiz hər bir təşəbbüsü risklərdən böyük uzaqgörənliklə qoruyur.

Sülh müqaviləsi bağlanmasa da, bölgədə sülh dövrü faktiki bərqərar olunub. Milli təhlükəsizliyə təhdid yaradan amillər zərərsizləşdirilib. Azərbaycan xalqı belə bir münbit təhlükəsizlik şəraitində Qarabağ mövzusunu indi möhtəşəm tikinti və quruculuq məkanı kimi müzakirə edir, bu sahədə qlobal miqyaslı işlər görülür.

Regionun tərəqqi, əməkdaşlıq və təhlükəsizlik mühitində Azərbaycan fenomeni əsas tənzimləyici faktordur. Zəfərin yaratdığı reallıqlar isə Qafqaz bölgəsi ilə yanaşı, ümumiyyətlə, Avrasiya məkanının müxtəlif sahələrində yeni yanaşmaları, müasir çağırışları aktuallaşdırıb.

Ölkəmizdə və Qafqazda sülh, inkişaf və təhlükəsizlik sistemi dünyaya mühüm töhfədir. Qlobal səviyyədə nüfuzlu dövlət və lider kimi tanınan Azərbaycanla bağlı hər hansı bir proses təbii olaraq, beynəlxalq miqyasda da diqqətlə qarşılanır və onun ciddi təsirləri olur.

Eyni zamanda Azərbaycanın və onun Liderinin müstəqil siyasəti müəyyən xarici dairələrdə, qruplarda, hətta bəzi dövlətlərdə narahatlıq və narazılıq yaradır. Prezident cənab İlham Əliyevin təbirincə desək, Azərbaycan dünya miqyasında çox böyük layları yerindən tərpədib. Ancaq respublikamızın son onillikdə qlobal problemlərin həllinə verdiyi töhfələrlə qazandığı böyük nüfuz, etimad bu müstəqil siyasətin davamlılığını arzulayan dövlətlərin və xalqların əksəriyyət təşkil etdiyini də göstərir.

Yeri gəlmişkən, qlobal miqyasda təhlükəsizlik sahəsində yaşanan problemlər təəssüf ki, son illərdə daha geniş miqyas almışdır. Sosial böhranlar, iqtisadi tənəzzül, vətəndaş qarşıdurması, siyasi qovğalar, hətta ekoloji fəlakətlər mahiyyətcə qanlı savaşlarla eyni nəticələr verir və dövlətlərin, millətlərin təhlükəsizliyinə ciddi təhdidlər formalaşdırır. Müasir təhlükəsizlik sistemində bütün bu amillər eyni səviyyəli təhlükə faktoru kimi qəbul olunur və onların zəncirvari halqa kimi bir-birinə zərərli təkan vermələri aydın müşahidə edilir.

Xarici təsirlər nəticəsində hələ də "rəngli inqilablar"a, yeni növ işğalçılığa və müstəmləkə siyasətinə məruz qalan ölkələrin sayı yetərincədir. Azərbaycan bu prosesdə fəal mövqe nümayiş etdirir, xalqların və dövlətlərin suveren hüquqlarının müdafiəsində konkret fəaliyyət yürüdür. Eyni zamanda məlum fövqəldövlətlərin müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparan kiçik dövlətlərin, xarici təşkilatların, siyasi partiyaların təmsilçiləri ölkəmizdə müxtəlif tədbirlər təşkil edir, koordinasiya mərkəzləri yaradırlar.

Beynəlxalq təhlükəsizlik sistemində təsiredici qüvvə kimi mövqeyi günü-gündən artan və möhkəmlənən Azərbaycan Respublikasının yeni tarixi mərhələdə həyata keçirdiyi fəaliyyət, bir az əvvəl qeyd etdiyim kimi, yalnız ölkə miqyası ilə məhdudlaşmır. Onun BMT Təhlükəsizlik Şurasına və Qoşulmama Hərəkatına sədrliyi dövründə, eləcə də bu gün beynəlxalq arenada səmərəli təşəbbüsləri, qarşılıqlı faydalılığı təmin edən əməkdaşlıq təklifləri yüksək hörmətlə qarşılanır.

Qlobal təhlükə mənbələrindən biri də bəşəriyyətin bəlasına çevrilən ekoloji fəsadlardır. İqlim dəyişikliklərindən qaynaqlanan bu problemin həlli istiqamətində Azərbaycanın göstərdiyi təşəbbüslərin ən uğurlu nəticəsi isə, şübhəsiz, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi olacaq. Belə bir beynəlxalq nüfuzlu, qlobal əhəmiyyət daşıyan, dövlətlərin təmsilçiliyi baxımından BMT Baş Assambleyasına bərabər tutulan ən mötəbər beynəlxalq tədbirin məhz bu ay Bakıda keçirilməsi Azərbaycana növbəti böyük etimaddır.

İqtisadi-sosial təhlükəsizliyin təminində də ümumilikdə son onilliklərdə Azərbaycan dünya üzrə ən yaxşı göstəricilərdən birinə sahibdir. Bunun da mahiyyətində Prezident cənab İlham Əliyevin böyük zəhməti, fədakarlığı, müdrikliyi, mahir idarəçilik qabiliyyəti və ümumxalq dəstəyi dayanır. Dövlət başçımızın mükəmməl islahatlar konsepsiyası nəticəsində Azərbaycan siyasi və iqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, bölgənin siyasi, iqtisadi və əməkdaşlıq mərkəzi, mühüm tranzit qovşağı, qlobal enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı, etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü kimi tanınır.

Bir müddət əvvələdək beynəlxalq cinayətkarlıq yuvası olan Qarabağda və Şərqi Zəngəzurda indi möhkəm təhlükəsizlik sistemi və müvafiq infrastruktur yaradılır. Vaxtilə separatçılığın ünvanı olan bu ərazilər artıq beynəlxalq əməkdaşlıq, sülh, inkişaf və mədəniyyət mərkəzinə çevrilmişdir.

Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev indi həm də Qurucu Rəhbər kimi bu bölgədə yeni möhtəşəm inkişaf tarixini yaradır. Yüz minlərlə insanın qayıdacağı Qarabağ və Şərqi Zəngəzur ərazisində yüzlərlə xəstəxana, idman kompleksi, təhsil və mədəniyyət ocağı, sosial infrastruktur, hava limanı, tunellər, körpülər, yüz kilometrlərlə dəmir yolu xətti, minlərlə kilometr avtomobil yolu mövcud olacaq. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına qoşulması bütövlükdə Azərbaycanın inkişafına və təhlükəsizliyinin etibarlı təmininə də əsaslı zəmin yaradacaq.

Bu şərəfli missiyanın reallaşmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın müstəsna xidmətləri, əvəzsiz dəstəyi vardır. Möhtərəm xanım Mehriban Əliyevanın Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi sosial, humanitar, mədəniyyət layihələri, himayə etdiyi genişmiqyaslı bərpa, quruculuq və abadlıq işləri nəticə etibarilə dövlət başçımızın dövlətçilik kursunun layiqincə icrasına mühüm töhfələr verir. Bu fədakarlıq nümunələri dünyaya Azərbaycanın gücünü, dövlətimizin möhkəm iradəsini, xalqımızın qurub-yaratmaq əzmini nümayiş etdirir.

Qürur hissilə qeyd etmək istərdim ki, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq prosesi, buraya yatırılan böyük həcmli xarici sərmayə bütünlüklə Azərbaycanda və Qafqaz bölgəsində möhkəm, etibarlı təhlükəsizlik mühitinin formalaşmasına, sabitliyin təmininə, eləcə də inkişafa, mövcud vəziyyətə təhdid yaradan meyillərin aradan qaldırılmasına mühüm təkan verir.

Yeri gəlmişkən, Azərbaycanın sərhədlərinə yaxın ərazilərdə köhnə münaqişə ocaqları yenidən közərir, yeni savaşlar baş verir. Bu isə qlobal təhlükədir. Qanlı müharibələr, daxili təfriqələr nəticəsində öz ölkəsini tərk edərək qaçqın və köçkünə çevrilənlərin sayı artıq milyonlarla ölçülür. Xarici təsir və təhriklərlə dövlətlərin suverenliyinə təhdidlər çoxalır. Dünyanın ən güclü dövlətləri belə terrorçuluqdan, transmilli cinayətkarlıqdan əziyyət çəkirlər.

Belə bir mənzərə Azərbaycanın daxil olduğu regionun da mövcud reallığıdır. Ancaq vətəndaşlarımız bu coğrafiyada təhlükəsizlik, sabitlik, əmin-amanlıq şəraitində yaşayırlar, qurub-yaradırlar. Qlobal böhran və beynəlxalq təhlükə mənbələrinin davamlı genişləndiyi bir zamanda tarixin ən qüdrətli Azərbaycanını yaratmaq məhz Prezident cənab İlham Əliyevin tariximiz, müasir dövrümüz və gələcəyimiz qarşısında misilsiz xidmətidir.

Yalnız öz gücü hesabına ərazisindəki savaşa son qoyan, dayanıqlı təhlükəsizlik sistemi, hərbi qüdrəti, yüksək iqtisadi potensialı, qlobal proseslərə təsir imkanları ilə dövlətimiz bu gün dünya təcrübəsində uğurlu nümunə yaradıb, fenomen ölkə imici formalaşdırıb.

Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etməklə möhtərəm Ali Baş Komandan, yeni əsrin Yeni Milli Lideri cənab İlham Əliyevin qüdrətli Sərkərdəliyi, şanlı Ordumuzun və qəhrəman Xalqımızın sarsılmaz birliyi və iradəsi ilə tariximizin ən böyük, ən ehtişamlı Zəfərini qazanıb.

*Yeniləşən, inkişaf edən, getdikcə qüdrətlənən Azərbaycan Respublikası möhtəşəm Zəfəri, qələbələri və nailiyyətləri ilə bu gün də öz şərəfli tarixinə yeni səhifələr yazır, xalqımızın daha gözəl, daha parlaq gələcəyinin sarsılmaz təməlini yaradır!*

**Ramil USUBOV,**
***Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi***

# Milli gücün təntənəsi



**Mənə "ömrünün ən unudulmaz gününü söylə" sualını verənlərə tərəddüd etmədən "8 noyabr 2020-ci il" deyərdim. Bu tarix tək mənim deyil, Azərbaycanın hər bir vətəndaşı, türk dünyası üçün unudulmaz, əsrlərlə xatırlanacaq, bayram ediləcək gündür.**
**Bu gün 30 il həsrətini çəkdiyimiz, gözlədiyimiz, uğrunda qan axıtdığımız, can verdiyimiz tarix olmaqla bərabər, həm də əsrlərlə itirdiklərimizin, saxlaya, qoruya bilmədiklərimizin qaytarıldığı gündür - Zəfərimizin, suverenliyimizin tam təmin edilməsinin təməlidir.**

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin illərlə düşündüyü, hazırladığı hərbi strategiyanın, ordumuzun qüdrətinin, xalqımızın birliyinin təntənəsi olan, dünyanı heyrətdə qoyan, Ermənistanı acınacaqlı vəziyyətə salan Zəfər yürüşümüz, qələbə arzularımız, bayram sevinclərimiz torpaqdan, yurddan, inamdan güc aldığı üçün qüdrətləndi, qürurlandı, düşməni isə sarsıtdı, əzdi.

30 il əzab-əziyyət içərisində yaşayan və torpaq həsrəti çəkən, şəhər və kəndləri, tarixi, dini, mədəni abidələri viran edilən, sinəsinə dağ çəkilən - öldürülən, başı kəsilən, gözü çıxarılan, diri-diri basdırılan, əsir götürülən, ancaq haqq səsi eşidilməyən bir xalqın ahının-amanının, nifrətinin, qəzəbinin təlatümüdür bu Zəfər. Ədalətə, həqiqətə, insanlığa, demokratiyaya, bəşəri ideyalara, xalqa, torpağa məhəbbətin, sədaqətin, özünə, sözünə güvəncin, saxta vədlərə, qərarlara, gücsüz, gərəksiz qətnamələrə, boğazdan yuxarı çıxışlara etirazların, inamsızlığın, öz gücünə etibarın ifadəsidir bu Zəfər. Zəfər günümüzü yaxınlaşdıran, qələbəyə gedən yolumuzu işıqlandıran isə Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, qətiyyəti, reallıqları düzgün qiymətləndirməsi, vaxtı, zamanı zərgər dəqiqliyi ilə ölçüb-biçməsi, ordunu gücləndirməsi, xalqı öz ətrafında sıx birləşdirməsi idi.

Zəfərimiz Ulu Öndər Heydər Əliyevin bəşəri ideyalarına sadiqlikdən qaynaqlanır və onun vətənə, torpağa məhəbbətindən qüvvət alır. Azərbaycan Prezidentinin qüdrəti, məharəti və uzaqgörənliyi məhz bu ideyalara mükəmməl yiyələnməsində və əməlində yaşatmasındadır. Cənab İlham Əliyev 31 oktyabr 2003-cü il tarixdə andiçmə mərasimində bildirirdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcək... Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".



Ümummilli Liderimiz Heydər Əliyevin ən başlıca amalı, siyasət xəttinin əsas istiqaməti Azərbaycanı bütöv, tam suveren, torpaqlarımızı işğaldan azad görmək idi. Ulu Öndər buna əmin idi və dəfələrlə bildirmişdi ki, torpaqlarımız erməni təcavüzkarlarından təmizlənəcək, insanlar öz ata-baba yurdlarına qayıdacaqlar. Bu amalı, istəyi, arzunu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ustalıqla düşünüb hazırladığı siyasi və hərbi taktikanın - güclü ordu yaratmaqla, xalqı səfərbər etməklə reallığa çevirə bildi və əleyhimizə olan beynəlxalq gücləri, bəzi dövlətləri mat edərək 44 günlük müharibəni böyük qələbə ilə başa çatdırdı.

Azərbaycan Prezidentinin söylədiyi "Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırıq və yaxınlaşdırdıq" ifadələri xalqa, orduya inamdan, qarşıya qoyulan vəzifələrə dəstəkdən gəlirdi. Cənab İlham Əliyev ordu quruculuğunu inkişaf etdirdi və ordunu gücləndirdi. Ordunun döyüş qabiliyyəti yüksəldildi, müasir silah-sursatla, texnika ilə təchiz edildi. Ölkənin hərbi sənaye kompleksi yaradıldı. İqtisadi inkişafa dəstək verən çox mühüm layihələr hazırlanıb yerinə yetirildi. Beynəlxalq təşkilatlarla, xarici dövlətlərlə əlaqələr genişləndirildi və milli maraqlara xidmət edən mühüm sənədlər imzalandı.

Xalqda qələbəyə böyük inam yaradıldı, orduya dəstək gücləndirildi. Torpaq uğrunda döyüşmək borca deyil, amala çevrildi. 44 günlük müharibə zamanı erməni ordusunda 10 mindən çox fərari olduğu halda əsgər və zabitlərimizdən bir nəfər belə azğın düşmənlə mübarizədə geriyə addım atmadı. On minlərlə insanın orduya könüllü yazılması və təxribatlar zamanı bir nəfər insanın belə öz evini tərk etməməsi xalqımızın mətanətinin və qələbəyə olan inamının ifadəsi idi. Ölkə rəhbərinin bildirdiyi kimi, 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəli gedirdi. İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyin və birliyin yeni bir nümunəsi oldu və dünyaya ölkədə yaşayan bütün xalqların bir məqsəd uğrunda mübarizə apardığını sübut etdi. Tarixi qələbə yeni inkişafa, ölkənin tərəqqisinə, beynəlxalq əməkdaşlığa yeni imkanlar yaratdı. Dünya Azərbaycanı öz azadlığı, haqq-ədalət, demokratiya, insan haqları uğrunda qətiyyətlə mübariz, öz sözünü deməyə qadir, güclü orduya və birliyə malik bir dövlət kimi tanıdı və dəyərləndirdi. Zəfərimiz 23 saatlıq antiterror tədbirlərinin uğurla nəticələnməsinə, erməni təcavüzkarlarının ayaqlarının torpaqlarımızdan kəsilməsinə zəmin yaratdı və güclü orduya, döyüşkən xalqa malik olduğumuzu bir daha təsdiqlədi. Azərbaycan Prezidenti qələbələrin əsasını ilk növbədə ictimai-siyasi sabitlikdə və iqtisadi inkişafda görür, bunun üçün möhkəm zəmin hazırlayırdı. İnsanlarla səmimi görüşlər, regionlara səfərlər, qarşılıqlı fikir mübadilələri, siyasi plüralizmə, söz azadlığına imkan yaradılması, sosial-iqtisadi inkişafa dair dövlət proqramlarının, layihələrin həyata keçirilməsi uğurlara yollar açır, dövləti gücləndirir, xalqı bir məqsəd uğrunda səfərbər edirdi.

Mühüm əhəmiyyətli islahatların nəticəsidir ki, artıq ölkə üzrə iqtisadi artım 4,3 faiz təşkil edir ki, bu da dünyada baş verən gərginliklər və geosiyasi vəziyyətdə müsbət göstəricidir. Cənab İlham Əliyev bəyan edir ki, artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib: "Biz öz resurslarımıza arxalanaraq güclü, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki aparmışıq və aparacağıq".

Əlbəttə ki, bu müstəqil siyasətin təməlində ölkəmizin milli təhlükəsizliyi, müdafiə qüdrətinin möhkəmləndirilməsi, ordunun gücləndirilməsi, xalqın rifah halının yaxşılaşdırılması və xoşbəxt həyatının təmin edilməsi, işğaldan azad olunmuş ərazilərin bərpası, tikinti, abadlıq, quruculuq işlərinin sürətləndirilməsi durur. Bu istiqamətlərdə həyata keçirilən tədbirlər vətəndaşlarımızda qürur hissi doğurmaqla bərabər, həm də onları yeni zəfərlərə, uğurlara həvəsləndirir.

Çox təəssüflər olsun ki, tarixi zəfərimizi, müstəqil siyasətimizi, beynəlxalq aləmdə artan nüfuzumuzu həzm edə bilməyən, gözü götürməyən xarici dövlətlər, beynəlxalq təşkilatlar, ikiüzlü siyasətçilər də var. 30 ildən sonra torpaqlarımızı azğın, qaniçən erməni cəlladlarından təmizləməyimizi, suverenliyimizi tam bərpa etməyimizi, haqqa, ədalətə sahib olmağımızı bu gün nədənsə Qərb ölkələri - ABŞ, Fransa, Avropa İttifaqı, AŞPA anlaya bilmir, qəbul etmir və uğurlarımıza kölgə salırlar. Xalqımızı, dövlətimizi Ermənistana qəsd etməkdə, erməni faşistlərini incitməkdə, torpaqlarımızdan çıxarmaqda günahlandırırlar. Əsası olmayan qətnamələr, qərarlar qəbul edirlər, hər bir cəhdlə Azərbaycanı gözdən salmağa çalışırlar. Əksinə, xalqımıza qarşı soyqırımları, faciələr törədən Ermənistanı dəstəkləyir, silahlandırır, yeni müharibəyə hazırlayırlar. Ancaq göstərilən bütün cəhdlər əbəsdir, çünki Azərbaycan haqq yolundadır, zəfər qazanıb və yeni zəfərlər sorağındadır. Dövlətimiz işğal zamanı ermənilərin viran qoyduqları rayonlarımızı, şəhər və kəndlərimizi öz maliyyə hesabına abadlaşdırır, bu yerlərə həyat verir.

Azərbaycan Prezidentinin yürütdüyü düzgün və məqsədyönlü siyasət sayəsində iqtisadi və siyasi gücümüz durmadan artır, beynəlxalq nüfuzumuz yüksəlir, dövlətimiz COP29 kimi dünya əhəmiyyətli tədbirlərə evsahibliyi edir, öz nailiyyətləri ilə insanları sevindirir.

"Sözümüz imzamızdır, biz nəyə söz veririksə, onu da edirik, bunu bütün dünya bilir" prinsipi ölkəmizin rəhbərinin həyatının və fəaliyyətinin əsas devizidir. Heç bir qüvvə bu birliyi sarsıda, bu zəfərə kölgə sala, uğurlarımızın qarşısını ala, xalqımızı haqq, mübarizə yolundan döndərə bilməz. Bayrağımız ölkənin bütün ərazilərində dalğalanır, əminik ki, hər zaman dalğalanacaq və xalqımıza səadət, vüqar bəxş edəcək.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# İlham Əliyevin Zəfər salnaməsi

**Azərbaycan xalqı böyük tarixi məqamın ərəfəsindədir. İkiəsrlik münaqişəyə və 30 illik savaşa son qoyan möhtəşəm Zəfərin dördüncü ildönümünü mühüm nailiyyətlər silsiləsi, davamlı uğurlar və müsbət inkişaf göstəriciləri ilə qeyd edirik.**
**Ən əsası isə artıq ərazi bütövlüyü, suverenliyi və konstitusiya quruluşu tam təmin edilən, torpaqlarında nə bir separatçı qüvvə, nə də yad silahlı qoşun qalan qüdrətli Azərbaycanın vətəndaşı olmaq qüruru hər bir sakinimizin iftixar mənbəyidir.**



İşğalçı Ermənistan üzərində tarixi Qələbəmiz həm də milli yaddaşın qızıl fondudur. Bu möhtəşəm Qələbə əbədiyyətədək davam edəcək qüdrət, ucalıq rəmzimizdir. Azərbaycan xalqı və dövləti bu böyük zəfərə doğru 1993-cü ilin 15 iyunundan - Qurtuluş Günündən etibarən fədakar, cəsur bir yol yürüdü.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik xətti nəticə etibarilə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev cənablarının misilsiz hərbi, siyasi və diplomatik qüdrəti hesabına Şuşada, Xankəndidə bayrağımızın dalğalanması ilə nəticələndi.

Prezident İlham Əliyev bu illər ərzində Azərbaycanın həqiqi müstəqilliyini təmin etdi. Ölkənin sosial-iqtisadi cəhətdən kiminsə asılılığında olmasına imkan vermədi. Azərbaycanı rəyi, mövqeyi ilə hamının hesablaşmağa məcbur qaldığı nüfuzlu ölkəyə çevirdi. Respublikamız regionun lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı oldu. Azərbaycanı inamla irəli aparan Prezident İlham Əliyevin hakimiyyət illəri birmənalı olaraq ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada söz sahibinə çevrilməsi ilə xarakterikdir.

Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" dediyi və xalqımızın Ümummilli Liderin layiqli davamçısı kimi qəbul etdiyi cənab İlham Əliyevin prezidentlik fəaliyyəti, əslində, bütün millətin inamının, etimadının uğurla gerçəkləşməsinin təntənəsidir. Dövlət başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq ölkə rəhbərinin fəaliyyət və həyat fəlsəfəsidir.

Cənab İlham Əliyevin 21 illik missiyası nəticəsində tarixin ən qüdrətli Azərbaycanı formalaşıb. Respublikamız öz tarixinin ən şanlı dövrünü yaşayır. Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır. Prezidentlik amalı qurub-yaratmaq, xalqını daha xoş günə, firavan həyata qovuşdurmaqdır. Ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb.

Qürur duyuruq ki, regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Ölkə rəhbəri dövlətimizi və xalqımızı daha böyük zəfərlərə daşıyacaq layihələrə, strateji qərarlara imza atır. Onun Azərbaycanın iqtisadiyyatında, elmində, təhsilində, səhiyyəsində, idmanında qazandığı zəfərlərini vətəndaşımız öz həyatında aydın hiss edir.

Azərbaycan xalqının tarixinə ən parlaq Qələbəni də məhz Müzəffər Ali Baş Komandan olaraq İlham Əliyev yazdı. Torpaqlarımızı işğaldan azad edərək xalqın 30 illik həsrətinə son qoydu. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və 20 sentyabr 2023-cü ildə lokal antiterror tədbirlərinin uğurlu nəticəsi tariximizin ən ali zirvəsidir. Bu əvəzolunmaz nailiyyət həm də Ermənistanın işğal altında saxladığı ərazilərimizə Böyük qayıdışı başlatdı.

Vətən müharibəsindən antiterror əməliyyatınadək olan dövrdə həyata keçirilən siyasət də böyük uğurla nəticələndi. Azərbaycan Ermənistanda olan revanşistlərin və onları dəstəkləyənlərin yeni müharibə arzusunun reallaşdırılmasına yol vermədi, Azərbaycanın yeni müharibəyə cəlb edilməsinin qarşısını aldı, strateji məqsədə lokal terror əməliyyatı ilə nail oldu.

Prezident İlham Əliyevin müəllifi olduğu Zəfər salnaməsinin digər mühüm tarixi məqamları da var. 2023-cü il aprelin 23-də Həkəri çayının üzərində Azərbaycanın "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə ərazi bütövlüyümüzün tam bərpasına nail olundu. Böyük zəfərdən sonra və uğurlu antiterror tədbirlərinədək də Azərbaycan Silahlı Qüvvələri qələbə ilə nəticələnən çoxsaylı hərbi əməliyyatlar həyata keçirdi. Bu il həmçinin Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin geri qaytarılması və sülhməramlı missiya tərkibindəki rus silahlılarının ölkəmizi vaxtından bir neçə il əvvəl tərk etməsi də qətiyyətli siyasətin nəticələridir.

Bir məqama da toxunaq. Vətən savaşı Prezident İlham Əliyevin hərbi sərkərdəlik məharətini üzə çıxarmaqla yanaşı, onun diplomatiya sahəsində də böyük peşəkar olduğunu təsdiqlədi. Hərbi əməliyyatlara şəxsən nəzarət edən, döyüşən orduya tapşırıqları birbaşa özü verən Müzəffər Ali Baş Komandan həm də diplomatiya müstəvisində çevik siyasəti ilə ustad dərsi keçdi. Müharibə dövründə xarici KİV-ə 30-dan çox müsahibə verməsi ilə dövlət başçımız münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında böyük dönüş yaratdı.

Prezident İlham Əliyev Vətən savaşında qazandığı zəfərlə həm də tarixi ədaləti bərpa etdi. ATƏT-in Minsk qrupunun onilliklər boyu görməzdən gəldiyi münaqişəni bir həmləylə həll etdi. BMT-nin həyata keçirməli olduğu missiyanı, dörd qətnamənin icrasını özü təmin etdi. Ermənistanın silahlı qüvvələrinin darmadağın edilməsi, düşmənin təslim aktını imzalaması Qafqazda tarixi münaqişəni sonlandırdı. Antiterror tədbirlərinin nəticəsi və Qarabağdakı qondarma qurumun özünü ləğv etməsi ilə dünyada çox az rastlanan bir hadisə baş verdi - separatçı rejim məhv edildi.

Bununla da Azərbaycan dövləti bütün torpaqları üzərində tam suverenliyini bərqərar etmiş oldu. Unutmayaq ki, Azərbaycan ərazi bütövlüyünü öz gücünə bərpa edə bilmiş çox azsaylı ölkələrdəndir.

Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olunub. Müzəffər Ali Baş Komandan Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Dövlət başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində bu barədə deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Qarabağdakı tam və qəti qələbə cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin məntiqi nəticəsidir. Prezident indi həm dayanıqlı və etibarlı sülhü təmin edəcək müqavilənin imzalanması üçün qətiyyətli fəaliyyət göstərir, həm də Böyük qayıdışın uğurla reallaşmasını müdrikliklə təmin edir.

Böyük qayıdışla bağlı həyata keçirilən prosesdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri, böyük töhfələri var. Mehriban xanımın birbaşa təşəbbüsü ilə aparılan abadlıq, quruculuq, yenidənqurma işləri Qarabağ və Şərqi Zəngəzurun simasını dəyişməklə yanaşı, möhtərəm Prezidentimizin fəaliyyətinə böyük təkan, əlahiddə yardımdır. Mehriban xanım Əliyeva həm də şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir.

Postmüharibə dövründə Böyük qayıdış dövlətin ən mühüm prioritetlərindəndir. Həyata keçirilən genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. İşğaldan azad edilmiş ərazilərin bərpa və inkişafı, məcburi köçkünlərin doğma torpaqlarına qayıtması və digər bu kimi hadisələrlə dünya şahid oldu ki, Azərbaycan qurucu dövlətdir, öz suveren ərazilərinin tam sahibidir.

Prezident İlham Əliyevin Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada, Ağdərədə, Xocalıda, Xankəndidə dalğalandırdığı Zəfər bayrağı artıq bütövləşən Azərbaycanda milli dövlətçiliyin formalaşmasının və əsas hədəflərin reallaşmasının təsdiqidir.

Bu zəfər təəssüratları altında Azərbaycan öz tarixinin növbəti bir ilk hadisəsinə hazırlaşır. Respublikamızda ilk dəfə olaraq 100 minə yaxın xarici təmsilçinin iştirak edəcəyi qlobal konfrans keçiriləcək.

Gələn həftə başlayacaq BMT-nin İqlim Dəyişimələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Bakı - Azərbaycan iki həftə ərzində dünyanın mərkəzinə çevriləcək. Göründüyü kimi, Prezident İlham Əliyev bu istiqamətdə də dünyada ən mükəmməl örnəklərdən birini yaradır.

Azərbaycanın Zəfər salnaməsi isə yeni nailiyyətlərlə, uğurlarla, daha sanballı səhifələrlə yazılır!

**Asif ƏSGƏROV,**
***Milli Məclisin deputatı***



# Əsrlərə bərabər 44 gündə yazılan möhtəşəm Zəfər

**Artıq dörd ildir ki, Azərbaycan xalqı yeni bir tarixin sevinci və qürurunu yaşayır. Bu tarix ölkəmizdə və yaşadığımız böyük bir coğrafiyada reallıqları dəyişmiş, parlaq gələcəyə doğru yol açmışdır. Bu yol 8 Noyabr 2020-ci ildən - 44 günlük Vətən müharibəsindəki şanlı Zəfərimizdən başlayır.**

Noyabrın 8-i əsrlərdən bəri Qarabağda, Şərqi Zəngəzurda xalqımıza qarşı həyata keçirilən məkrli oyunların pozulduğu, illərdən bəri qəlbimizdə qövr edən işğal acılarının bitdiyi, milli qürurumuzun bərpa olunduğu, iztirab yükündən əyilmiş qəddimizin dikəldiyi, qisasın qiyamətə qalmadığı tarixdir. Biz bu tarixi birliyimizin gücü, Ali Baş Komandan İlham Əliyevin sarsılmaz qətiyyəti, müzəffər Ordumuzun rəşadəti ilə yazmışıq. Bu qələbə ilə tariximizdə yeni bir səhifə açmışıq. Son əsrlərdə bir-birinin ardınca itirdiyimiz torpaqların mühüm bir qismini ilk dəfə geri almağa nail olmuşuq. Əsrlərin ən böyük nailiyyətini əldə etməyi bacarmışıq. Müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyünü, suverenliyini bərpa etmişik.

Böyük qələbənin təməlində Azərbaycan dövlətinin illər ərzində həyata keçirdiyi güclü siyasət, ordunun təkmilləşdirilməsi, addım-addım həyata keçirilən hazırlıqlar, ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzu, ən mühümü, heç vaxt itirmədiyimiz inamımız durur.

## Qələbəyə gətirən yol

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi milli inkişaf siyasətini əzmlə həyata keçirən Prezident İlham Əliyev bu kursun prioritetinə uyğun olaraq Azərbaycan dövlətinin ərazi bütövlüyünün, suverenliyinin bərpasını ən ali məqsəd kimi müəyyənləşdirmişdi. "Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq" - Azərbaycan Prezidenti Böyük Qələbədən sonrakı çıxışlarının birində vurğulamışdı.

Torpaqlarımızın işğaldan azad edimsi, ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin bərpası məqsədi həm ardıcıl şəkildə aparılan ordu quruculuğu, həm də siyasi, iqtisadi, sosial-mədəni sahələrdə həyata keçirilən geniş və coxşaxəli tədbirlərlə davamlı şəkildə dəstəklənirdi. Prezident İlham Əliyev xalqımızın doğma yurdlarını heç bir zaman düşmənə güzəştə getməyəcəyini, bu məqsədə çatmaq üçün bütün resurslarını səfərbər edəcəyini çıxışlarında mütəmadi bəyan edirdi.

Ordumuzun qüdrəti, döyüş ruhu getdikcə artırdı. Azərbaycanın iqtisadi uğurları bu sahənin quruculuğuna ayrılan vəsaitlərin davamlı artırılmasına şərait yaradırdı. Müasir texnologiyalarla təchiz edilən silahlı qüvvələrimiz, həm yerli hərbi sənaye kompleksi, həm də müxtəlif ölkələrlə bağlanmış hərbi əməkdaşlıqlar sayəsində müasir silah-sursat və texnikalarla təmin olunurdu. Getdikcə güclənən ordumuz düşmən üzərindəki gücünü, üstünlüyünü hələ 2016-cı ildə 4 günlük Aprel döyüşlərində və 2018-ci ilin Günnüt əməliyyatında bütün dünyaya nümayiş etdirmişdi.

2020-ci il sentyabrın 27-də düşmənin növbəti hərbi təxribatlarına qarşı başlanan və tarixə "Dəmir yumruq" əməliyyatı kimi yazılan 44 günlük əməliyyatlar zamanı da ordumuz yalnız irəli gedir, hər gün yeni əraziləri işğaldan azad edir, qəhrəman əsgər və zabitlərimizin mübarizəsi sayəsində Azərbaycan bayrağı azad olunan kənd, qəsəbə və şəhərlərimizdə dalğalanırdı. Ali Baş Komandanın tarixi qələbə müjdələri insanlarımızın coşqusunu, zəfər əzmini daha da artırır, Azərbaycan xalqı yumruq kimi birləşərək illərdən bəri həsrətində olduğumuz böyük qələbənin əldə edilməsinə töhfə verməyə çalışırdı.

Hər zaman Vətən sevgisi ilə yaşayan vətəndaşlarımız bu sevginin işığında birləşmişdi. Milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hamı bir yumruq kimi idi. Xalq-ordu birliyi Vətən müharibəsində özünü bütün gücü ilə göstərirdi. Müharibə zamanı Azərbaycan xalqının orduya və dövlətinə olan inamı, vətənpərvərliyi özünü yüksək səviyyədə təzahür etdi. Bu birlik, Ermənistanın çirkin kampaniyalarına qarşı fədakarlıq göstərən diaspor nümayəndələrimizin və Azərbaycana dəstək verən qardaş ölkələrin səyləri ilə daha da güclənirdi.

## XXI əsrin hərb dərsi

Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirdikləri yeni nəslin təmsilçiləri olan əsgər və zabitlərimiz dövlətimizin suverenliyi, ərazi bütövlüyü uğrunda fədakarlıqla döyüşür, bütün dünyanı heyrətləndirən misilsiz igidliklər göstərirdilər. Onlara bu əzmi bəxş edən güclü bir dövlətə mənsubluq duyğusu, Azərbaycanın apardığı savaşın haqq savaşı olmasına inam, üçrəngli bayrağımız önündə içilmiş əsgər andına sadiqlik hissi idi. Hərbi əməliyyatların ilk günlərindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarının qarşısı insan seli ilə dolub daşırdı. Gənclərimiz bu qurumlara gələrək könüllü olaraq cəbhəyə göndərilmələrini tələb edir, şanlı qələbənin qazanılmasında əldə silah iştirak etməyə can atırdılar.

Azərbaycan Ordusunun o dövr üçün mövcud gücü, potensialı, düşmən üzərində üstünlüyü elə bir səviyyədə idi ki, heç ölkədə tam səfərbərlik etməyə belə ehtiyac qalmamışdı. Şəxsi heyətlə bağlı bəzi ehtiyaclar üçün yalnız qismən səfərbərlik elan olunmuşdu və Azərbaycan öz ordusu ilə, aparılan ildırımsürətli əməliyyatlarla bütün dünyaya XXI əsrin hərb dərsini nümayiş etdirirdi.

Azərbaycanı tarixi qələbəyə gətirən yol həm də uğurlu diplomatik addımlardan, məqsədyönlü şəkildə həyata keçirilən xarici siyasət xəttindən, beynəlxalq təşkilatlarla qurulmuş səmərəli əməkdaşlıqdan keçmişdir. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində də, Prezident İlham Əliyevin rəhbərliyi dövründə də Azərbaycan hər zaman beynəlxalq hüquqa əsaslanan sülhün tərəfdarı olmuş, sülh danışıqlarına sadiq qalmış, münaqişənin heç bir tərəfdən insan itkilərinə yol vermədən dinc şəkildə başa çatması üçün hər zaman fəal mövqe tutmuş, illərlə böyük səbr və təmkin nümayiş etdirmişdir. Lakin Ermənistanın işğalçı mövqeyi, beynəlxalq sənədlərin icra edilməməsi və danışıqlar prosesinin ədalətli şəkildə aparılmaması müharibəni qaçılmaz etdi.

Münaqişənin həlli prosesində BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən 4 qətnaməsi kağız üzərində qalmışdır. Azərbaycan illər ərzində bu məsələ ilə bağlı BMT və digər beynəlxalq təşkilatlara müraciət etsə də, dünya ictimaiyyətinin sükutu və Ermənistana göstərilən himayə ölkəmiz üçün məsələnin hərbi yolla həllindən başqa yol saxlamadı. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini ordumuzun gücü ilə icra etdi. İllərlə torpaqlarımızı işğal altında saxlayan, qurulu yaşayış məskənlərimizi, Azərbaycan vətəndaşlarının illərin zəhməti hesabına ərsəyə gətirdikləri infrastrukturu vandalcasına tar-mar edən düşməni torpaqlarımızdan qovdu.

Azərbaycan Respublikasının Prezidenti paralel şəkildə diplomatik səngərlərdə davam edən müharibəni də uğurla apardı. Hərbi əməliyyatların gedişində dünyanın müxtəlif qlobal media qurumlarına müsahibələr verərək, onların hətta Ermənistanın mövqeyinə əsaslanan təxribatçı suallarını belə özünəməxsus diplomatik təmkinlə cavablandırdı. Beynəlxalq ictimaiyyətə əsl həqiqətləri çatdıraraq, informasiya savaşında da Azərbaycana üstünlük qazandırdı. Prezident İlham Əliyevin verdiyi müsahibələr, dünyanın müxtəlif ölkələrində keçirilən görüşlər Azərbaycan həqiqətlərinin dünyaya bəyan edilməsində, xarici aləmin məsələ barədə aydın təsəvvürlərə malik olmasında müstəsna rol oynadı.

Birinci Qarabağ müharibəsi zamanı xaricdəki havadarlarının dəstəyindən, ölkəmizin ovaxtkı imkansızlıqlarından istifadə edərək Azərbaycan ətrafında informasiya blokadası qurmağa nail olmuş düşmən artıq nə qədər aciz duruma düşdüyünü gördü.

## Şuşa zəfər simvolumuz oldu

Şuşa şəhərinin özünəməxsuslüqları ilə tariximizdə xüsusi yeri var. Təxminən 30 illik işğal dövründə Şuşa iztirablarımızın, yurd həsrətimizin rəmzi idi. Hər dəfə bu gözəl məkanın keçmiş günlərində çəkilmiş şəkillərinə baxanda, hərdən işğal dövründəki görüntüləri rastımıza çıxanda qəlbimiz parçalanırdı. Nə vaxtsa özümüzün də olmasa, gələcək nəsillərin bu ruh şəhərimizə bir gün qayıtması arzusu ilə yaşayırdıq. Vətən müharibəsi röyalarımızı gerçəyə, Şuşanı şanlı qələbəmizin simvoluna çevirdi.

44 günlük Vətən müharibəsi zamanı verdiyi müsahibələrin birində Ali Baş Komandan İlham Əliyev "Şuşasız bizim işimiz yarımçıq qalar" demişdi. 2020-ci ilin 8 noyabr günü cənab İlham Əliyevin hərbi geyimdə, milli mənəviyyatımızın ən uca məqamı olan Şəhidlər xiyabanından xalqımıza da, Şuşaya da yetirdiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" müjdəsi bundan sonra da əsrlər boyu Azərbaycan insanlarının yaddaşında səslənəcək, bütün dünya azərbaycanlılarının qəlbi qürur hissi ilə döyünəcək. Şuşanın işğaldan azad olunması həm də milli iradənin və əzmin qələbəsi oldu.

Əsgər və zabitlərimizin bütün dünyanı heyrətləndirən misilsiz şücaəti sayəsində Şuşanın azad edilməsi müharibənin gedişində həlledici rol oynadı. Bu qələbədən sonra düşmən faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Şuşanın işğaldan azad edilməsi ilə xalqımızın 30 illik həsrəti sona çatdı və bu böyük qələbə Azərbaycan Ordusunun peşəkarlığının və döyüş qabiliyyətinin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında həyata keçirilən 23 saatlıq antiterror əməliyyatında da böyük şücaət göstərərək bayrağımızı Xankəndidə ucaltdı. Azərbaycanın dövlət suverenliyini təmin etdi.

## Zəfərdən quruculuğa

Torpaqlarımızın azad edilməsindən dərhal sonra bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq tədbirləri başlandı. Erməni vandallarının illər ərzində dağıdıb tar-mar etdikləri yurdlarımızı bu gün Azərbaycan dövləti heç kimin yardımı olmadan öz gücü hesabına yenidən qurur. Torpaqlarımız yenidən inkişaf axarına qovuşur. Artıq Qarabağa, Şərqi Zəngəzura Böyük qayıdış başlanıb. Keçmiş məcburi köçkünlərimizin bir qismi dogma yurdlarda onlar üçün tikilmiş mənzillərdə, evlərdə yeni həyatına başlayıb. İşğaldan azad olunmuş ərazilərimizin tez bir zamanda bərpası və həmin ərazilərə keçmiş köçkünlərin geri qaytarılması əsas prioritetlərdən biridir. Bu məqsədlə tədbirlər davam edir, müasir infrastruktur qurulur.

Yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın inkişafı yolunda yeni səhifə açır. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri bu bölgələrin iqtisadi potensialını artıraraq ölkənin ümumi iqtisadi gücünə güc qatır. Böyük qayıdış Azərbaycanın iqtisadi və sosial inkişafında yeni bir mərhələnin başlanğıcıdır.

İşğaldan azad olunmuş şəhərlərdə Zəfər muzeylərinin inşa olunması, tarixi və mədəni irsin bərpası istiqamətində həyata keçirilən tədbirlər də quruculuq və inkişaf proseslərində xüsusi istiqamət kimi nəzərə çarpır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun icra etdiyi layihələr bu prosesə mühüm töhfələr verir. Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən layihələr sayəsində Qarabağdakı və Şərqi Zəngəzurdakı tarixi abidələrimiz, müqəddəs məkanlarımız bərpa edilərək yenidən qapılarını ziyarətçilərə açır.

Azərbaycan xalqı və dövləti Vətən müharibəsində canlarını fəda edən qəhrəmanlarını daim yad edir. Şəhid ailələrinə, qazilərə geniş sosial dəstək tədbirləri həyata keçirilir. Şəhid ailələri və qazilər üçün reabilitasiya mərkəzləri açılır, onların məişət problemləri həll olunur.

Böyük qələbənin işığında Şuşada, Xankəndidə dalğalanan Zəfər bayrağımızın kölgəsində xalqımızın yeni nəsilləri böyüyüb boy atacaq və onun verdiyi milli qüruru, ruhu, inkişaf əzmini gələcəyə daşıyacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

## ZƏFƏR gündəliyi

### 5 noyabr 2020-ci il

# Düşmən bütün cəbhələrdə itkilər verərək geri çəkilib



**Noyabrın 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.**

Döyüş əməliyyatları müxtəlif intensivlikdə, əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

### Goranboy, Tərtər və Ağcabədiyə mərmi atılıb

Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulub.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılıb.

### Ağdam istiqamətində düşmənin xeyli sayda sursatı partladılıb



Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulub. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar olub.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılıb, artilleriya qurğuları tam sıradan çıxarılıb.

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

### Erməni əsgəri silah-sursatını, texnikasını qoyub qaçıb



Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçıblar. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayıb.

### Düşmənin 7-ci dağatıcı alayının qərargahı darmadağın edilib

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu məhv edilib.

### Erməni hərbçilərin diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verib.

Qeyd edilib ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görüb. Azərbaycan Müdafiə Nazirliyi ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırıb. Bütün videotəsvirlərdə aydın şəkildə görünüb ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmayıb, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Ali təhsildə elmi fəaliyyətin və tədrisin təşkili: cari vəziyyət və yeni çağırışlar" və "Orta ixtisas təhsili pilləsində tədrisin təşkili: normativlər və cari vəziyyət"mövzularında tədbirlər keçirilib

**Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin təşkilatçılığı ilə "Ali təhsildə elmi fəaliyyətin və tədrisin təşkili: cari vəziyyət və yeni çağırışlar" və "Orta ixtisas təhsili pilləsində tədrisin təşkili: normativlər və cari vəziyyət" adlı tədbirlər keçirilib.**






İlk tədbirin açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyası"nda ali təhsilə əlçatanlığın artırılmasının əsas hədəflərdən biri olduğunu nəzərə çatdırıb. Aparat rəhbəri 2024-cü ildə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olanların sayının 74 min nəfər olmasının sevindirici hal olduğunu, 2025-ci ildə bu sayın 75 min nəfərə çatdırılmasının nəzərdə tutulduğunu söyləyib.

Birgə səylər nəticəsində bu hədəfə çatacaqlarına ümid edən Mətin Kərimli qeyd edib ki, artıq ali təhsilin bakalavriat və magistratura səviyyələrinə qəbul olan hər iki nəfərdən biri dövlət hesabına təhsil alır. Eyni zamanda cari tədris ilindən etibarən ali təhsil müəssisələrinə doktorantura səviyyəsi üzrə qəbul olan bütün şəxslər dövlət hesabına təhsil alacaqlar.

Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq reytinq cədvəllərində tutduğu yerlərin getdikcə yüksəldiyini nəzərə çatdıran Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Əminağa Sadıqov Azərbaycanda elmi araşdırmaların həyata keçirilməsi ilə bağlı yeni islahatların əhəmiyyətini xüsusi vurğulayıb: "Son illərin araşdırmalarının nəticələri, dünyada baş verən proseslər onu göstərir ki, elmi tədqiqatların universitetlərdə həyata keçirilməsi daha uğurlu nəticələr verir".

Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman ali təhsildə elmi fəaliyyətin və tədrisin yeni çağırışlar əsasında təşkili məqsədilə keçirilən müzakirələrin bu istiqamət üzrə siyasətin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadığını söyləyib. O, ali təhsil pilləsinə, xüsusilə də doktoranturaya tələbə qəbulunda effektiv planlaşdırılmanın aparılmasını zəruri sayıb.

Tədbirin davamında "Professor-müəllim heyətinin tədris işi vaxtı norması" ilə bağlı təqdimat edilib. Elm və ali təhsil siyasəti şöbəsinin əməkdaşı Emil Səlimov auditoriya və auditoriyadan kənar saatların bölgüsünə edilən əlavə və dəyişikliklər barədə tədbir iştirakçılarına məlumat verib.

Daha sonra Elm və ali təhsil siyasəti şöbəsinin böyük məsləhətçisi Nüşabə Məmmədbəyova "Ali təhsil müəssisələrində elmi tədqiqat və elmi-metodiki işlərin təşkili qaydaları"nı iştirakçıların diqqətinə çatdırıb. O bildirib ki, elmi-metodiki işi həyata keçirən şəxslər dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, elmi-metodiki məqalələrin hazırlanması ilə yanaşı, elmi-metodiki şuraların bölmələrində, ixtisaslaşdırılmış şuraların iclaslarında, yeni təhsil texnologiyalarının hazırlanmasında da iştirak edə bilərlər.

Tədbirin sonunda hər iki təqdimatla bağlı müzakirələr davam etdirilib, iştirakçıların sualları cavablandırılıb.

Günün ikinci yarısında isə "Orta ixtisas təhsili pilləsində tədrisin təşkili: normativlər və cari vəziyyət" adlı tədbir keçirilib.

Tədbirin açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman hazırda orta ixtisas təhsili müəssisələrinin optimallaşdırılması istiqamətində tədbirlərin aparıldığını iştirakçıların diqqətinə çatdırıb, eyni zamanda subbakalavr dərəcəsi almış şəxslərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinin zəruriliyini vurğulayıb.

Daha sonra Elm və ali təhsil siyasəti şöbəsinin baş məsləhətçisi Vüsalə Qurbanova "Professor-müəllim heyətinin tədris işi vaxtı norması" haqqında təqdimatla çıxış edib. O, normalara edilən əlavə və dəyişiklikləri orta ixtisas təhsili müəssisələrinin məsul şəxslərinin diqqətinə çatdırıb. Saat bölgüsünün beynəlxalq və qabaqcıl təcrübələrə əsasən tərtib edildiyini bildirən V. Qurbanova yeni normaların tədrisin daha effektiv təşkilinə töhfə verəcəyini qeyd edib.

Tədbirin davamında orta ixtisas təhsili pilləsində tədrisin təşkili ilə bağlı müzakirələr aparılıb. Elm və ali təhsil siyasəti şöbəsinin əməkdaşları iştirakçıların suallarını cavablandırıblar.

Günün ikinci yarısında paralel olaraq pedaqoji ixtisaslar üzrə kadr hazırlığı aparan ali təhsil müəssisələrinin məsul şəxslərinin iştirakı ilə təcrübənin təşkilinə dair panel müzakirəsi aparılmışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tədris işləri üzrə prorektoru Eldar Aslanov pedaqoji ixtisaslar üzrə təcrübənin təşkili mövzusunda ADPU-nun yeni yanaşmasını panel iştirakçılarının diqqətinə çatdırmışdır. Mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, təklif olunan yeni təcrübə modelinə dair universitetlər təkliflərini bildiriblər.

# Heydər MƏMMƏDOV: "Ali hüquq təhsili alan gənclərin əksəriyyəti prokurorluq əməkdaşı olmaq istəyir"

**Bunu baş prokurorun müavini Heydər Məmmədov prokurorluğa işə qəbulla bağlı müsabiqənin yazılı imtahan mərhələsi zamanı jurnalistlərə açıqlamasında deyib.**



H.Məmmədov bildirib ki, dövlət başçısı möhtərəm prezident cənab İlham Əliyevin sayəsində, baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında müasir məzmunlu islahat tədbirləri intensiv surətdə davam edir. İslahatlar müxtəlifdir, çoxşaxəlidir və prokurorluğun bütün fəaliyyət istiqamətlərini əhatə edir. İstintaqın keyfiyyətinin artırılması, həm prosessual nəzarətin, həm dövlət ittihamının müdafiəsinin gücləndirilməsi, digər tərəfdən, innovativ yeniliklər, gənclərin şəffaf prosedurlara əsaslanan müsahibiqələr yolu ilə kadr korpusunun gücləndirilməsi - bütün bu faktorlar gənclərdə ruh yüksəkliyi yaradır. Ona görə də gənclər məhkəmə-hüquq sisteminin aparıcı qüvvəsi olan prokurorluqda işləmək arzusundadırlar. Təsadüfi deyil ki, bu gün ali hüquq təhsili alan gənclərin əksəriyyəti prokurorluq əməkdaşı olmaq istəyir.

# Prezident islahatlarının daha bir uğurlu nümunəsi

## Qiymətləndiricilər Palatası bu sahədə müsbət dəyişikliklər üçün geniş imkanlar yaradacaq

**Dövlət İmtahan Mərkəzi (DİM) "Qiymətləndirmə fəaliyyəti haqqında" yeni qanunun tələbinə uyğun olaraq ilk dəfə qiymətləndiricilərin ixtisas imtahanını keçirib.**



Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri, Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasının (CAATS) prezidenti Vüqar Oruc imtahanın yekunları və digər mövzular ətrafında "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, DİM tərəfindən təşkil edilən imtahanda 144 namizəd iştirak edib. Onlardan 106-sı uğur qazanıb. İmtahanlar 9 istiqamət üzrə keçirilsə də, iddialıların əksəriyyəti əsasən 2 istiqamət, daşınmaz və daşınar əmlakın qiymətləndirilməsi istiqamətlərinə üstünlük verib.

V.Oruc xatırladıb ki, 2022-ci ilin may ayında Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri seçilərkən hesabat-seçki yığıncağında "Qiymətləndirmə fəaliyyəti haqqında" 1998-ci ildə qəbul olunmuş qanunun yenilənməsi təklifi verilib: "Qiymətləndiricilər Palatasının yaradılması da təkliflərimiz sırasında idi. Belə bir təkliflə çıxış etməyimizin əsas səbəbi cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə miqyasında çoxvektorlu islahatlar həyata keçirilməsi, demək olar ki, bütün sahələrin yenilənməsi idi. Hesab edirdik ki, qiymətləndirmə fəaliyyəti də bu prosesdən kənarda qalmamalıdır və müasir dövrün tələblərinə uyğun fəaliyyət modelinə keçid etməlidir. Ötən ilin payızından etibarən qanun layihəsi hazırlanmağa başlandı və AQC olaraq biz də Milli Məclisdə təşkil olunan müzakirələrdə iştirak etdik. 2023-cü ilin sonunda isə qanun qəbul edilərək, Prezident İlham Əliyevin 8 dekabr 2023-cü il tarixli fərmanı ilə təsdiq olundu. Dövlət başçısının fərmanına uyğun olaraq Baş nazir Əli Əsədovun sərəncamı ilə Qiymətləndiricilər Palatasını təsis etmək üçün İqtisadiyyat və Maliyyə nazirliklərinin rəsmilərindən ibarət Təşkilat Komitəsi yaradıldı. Qanunla palatanı təsis etmək hüququ qiymətləndirmə imtahanından keçən qiymətləndiricilərə həvalə edilib. Biz Təşkilat Komitəsinin, İqtisadiyyat, Maliyyə, Ədliyyə nazirliklərinin, Mərkəzi Bankın və Dövlət İmtahan Mərkəzinin birgə müzakirələrində yaxından iştirak etdik".

Sədr qeyd edib ki, Dövlət İmtahan Mərkəzinin imtahanlara hazırlıq məqsədilə təşkil etdiyi prosesdə də AQC fəal iştirak edib və qiymətləndirmə mütəxəssisləri, iqtisadçı alimlərlə birlikdə imtahanın yüksək səviyyədə keçirilməsinə töhfələrini veriblər. O bildirib ki, imtahanla bağlı hər hansı neqativ fikri yoxdur və ölkə qiymətləndiriciləri sektor üçün yenilik sayılan mərhələni uğurla adlayıblar.

"Qiymətləndirmə fəaliyyəti haqqında" qanuna müvafiq olaraq Qiymətləndiricilər Palatası təsis olunmalıdır" deyən V.Oruc bildirib ki, artıq palatanın üzvləri məlumdur: "İmtahanda müvəffəqiyyət qazanan qiymətləndiricilər palatada təmsil olunmaq hüququnu qazanıblar. Təsis yığıncağını isə Nazirlər Kabinetinin yaratdığı Təşkilat Komitəsi təşkil edəcək. Bundan sonra qiymətləndirmə sektorunun tənzimlənməsi ilə bağlı qərarları palata və onun rəhbərliyi verəcək. Rəhbərliyə gəldikdə isə təsis yığıncağında seçilən sədr və müavinləri avtomatik olaraq Rəyasət Heyətində təmsilçilik qazanacaq. Bundan əlavə, Rəyasət Heyətinə daha 6 sərbəst üzv seçiləcək. Eyni zamanda yığıncaqda qurumun İntizam Komissiyası da formalaşdırılacaq. Onu da deyim ki, ölkəmizin ilk assosiativ peşə birliklərindən olan AQC qiymətləndirmə sektorunun tərəqqisi üçün mühüm işlər görüb. Faktiki olaraq tənzimləyici qurum funksiyasını həyata keçirib və bu əsnada qiymətləndiricilər arasında faydalı və qarşılıqlı təmasların artırılmasına, koordinasiyalı fəaliyyətin təşkilinə nail olub. Dövlət qurumları, maliyyə təsisatları, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, assosiativ birliklərlə fəal əməkdaşlıq edən cəmiyyət bu günə qədər qiymətləndiricilərin təlim, tədris, sertifikasiya prosesini də həyata keçirib. 7 türk dövlətinin, 700 qiymətləndirmə şirkətinin və minlərlə qiymətləndiricinin təmsil olunduğu Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasının formalaşmasında yaxından iştirak edib və bu gün AQC sədri olaraq bu beynəlxalq təşkilata rəhbərlik edirəm. Qiymətləndirmə sektorunun idarə olunması sahəsində xüsusilə son illərdə təkmilləşdirilmiş zəngin ənənə var. Ümidvarıq ki, bu amil nəzərə alınacaq və peşəkar qiymətləndiricilər Qiymətləndiricilər Palatasının rəhbərliyində təmsil olunacaqlar".

Sədr qeyd edib ki, AQC ictimai birlik, peşə birliyi olaraq fəaliyyətini bundan sonra da davam etdirəcək. Azərbaycanda bir çox sahələr hökumət orqanları tərəfindən tənzimlənsə də, həmin sahələrə aid ictimai birliklər də fəaliyyət göstərirlər. Yəni palatanın formalaşması AQC-nin fəaliyyətinə mane olmur, əksinə, cəmiyyətin qarşısında yeni və geniş imkanlar açır. AQC-nin bundan sonrakı fəaliyyəti heç şübhəsiz Qiymətləndiricilər Palatası ilə koordinasiyalı şəkildə davam edəcək.

Qiymətləndiricilər Palatasının formalaşmasının Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar prosesinin tərkib hissəsi olduğunu qeyd edən V.Oruc deyib ki, bu prosesə qanunvericilik bazasının yenilənməsi, müasir idarəetməyə keçidin təmini baxımından çox böyük önəm verilir və ölkəboyu həyata keçirilən çoxvektorlu islahatların nəticəsi müsbət olduğu kimi, bu prosesin də ümumilikdə qiymətləndirmə sektorunun tərəqqisinə yol açacağına şübhə etmir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı Media Mərkəzinin istehsalı olan "Tağıyev: Neft" bədii filmi kinoteatrlarda nümayiş olunacaq

**"Tağıyev: Neft" bədii filmi noyabrın 7-dən etibarən bütün kinoteatrlarda geniş izləyici auditoriyasına təqdim olunacaq.**




AZƏRTAC xəbər verir ki, ekran əsəri Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən lentə alınıb.

"Tağıyev: Neft" filmi böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan 4 hissəli "Tağıyev" filminin ilk hissəsidir.

Bakı Media Mərkəzinin istehsalı olan film başmaqçı ailəsində dünyaya gələn və sonrakı milyonçu taleyi ilə öz xalqı üçün böyük işlər görən Hacı Zeynalabdin Tağıyevin həyatının ən müxtəlif dövrlərini əks etdirir. Filmdə dövrünün nüfuzlu xeyriyyəçisi olan Tağıyevin fəaliyyəti ilə bağlı verdiyi çətin qərarlar, uğur qazanacağına olan inamı, inadkarlığı, sadə insanlara göstərdiyi dəstək, cəmiyyətin təhsil səviyyəsinin yüksəlməsi üçün atdığı tarixi addımlarla yaxından tanış olmaq, onun yaşadığı dövrə bir növ səyahət etmək mümkün olacaq. Film Şərqdə ilk "Qızlar məktəbi"nin Azərbaycanda tikilməsinə, ölkədə neft sənayesinin inkişafına, Bakı şəhərinin zəruri infrastrukturunun yaradılmasına nail olan Tağıyevin yaşadığı cəmiyyətin inkişafında oynadığı əvəzsiz rolu tamaşaçıya bədii-estetik formada çatdırır. Ekran əsərində XIX əsrin sonu XX əsrin əvvəlində Bakı və regionda baş verən mühüm tarixi hadisələrə də toxunulur.

Filmin çəkilişləri öz miqyasına görə də Azərbaycan kinematoqrafiya tarixinə düşüb. 76 fərqli məkanda çəkilişləri baş tutan filmdəki kütləvi səhnələrdə 2500-dən çox yaradıcı şəxs iştirak edib. Filmin tarixi səhnələri üçün 300-dən çox dekorasiya hazırlanıb. Tağıyevin yaşadığı tarixi dövrü tam əks etdirmək üçün xüsusi geyim emalatxanası yaradılıb, çoxlu sayda libas, aksesuar, zərgərlik nümunələri və xüsusi rekvizitlər hazırlanıb.

Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim və bəstəkarı Etibar Əsədlidir.

Xalq artistləri Pərviz Məmmədrzayev, Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov, Natəvan Hacıyeva da olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıb.

Ekran işinin ərsəyə gəlməsinə "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətləri də dəstək veriblər.

# COP29 ərəfəsində ictimai iaşə obyektlərinin ekoloji dayanıqlılığının qiymətləndirilməsi yekunlaşıb

**COP29 Azərbaycan Əməliyyat Şirkəti və "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ-nin (AZSTANDART) birgə həyata keçirdiyi Bakı şəhəri ərazisində yerləşən ictimai iaşə obyektlərinin ekoloji dayanıqlılığının qiymətləndirilməsi layihəsi yekunlaşıb.**




COP29 Azərbaycan Əməliyyat Şirkətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın əvvəlindən icrasına başlanılmış müştərək layihənin məqsədi ictimai iaşə obyektlərinin ekoloji cəhətdən dayanıqlılığını təmin etmək üçün bu sahədə qüvvədə olan beynəlxalq və dövlət standartlarının tələblərini təşviq etmək, eləcə də dayanıqlı fəaliyyət standartlarına uyğun olaraq restoranların fəaliyyətinin qiymətləndirilməsi olub. Layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq ISO standartlarının tələblərinə xüsusi uyğunlaşdırılmış qiymətləndirmə şkalası yaradılıb.

Qiymətləndirilmə prosesi layihənin məqsədlərinə uyğun olaraq müvafiq beynəlxalq və dövlət standartlarının tələbləri əsasında AZSTANDART tərəfindən ödənişsiz həyata keçirilib. Qiymətləndirmə enerji səmərəliliyi, sudan qənaətlə istifadə, tullantıların dayanıqlılıq standartlarına uyğun çeşidlənməsi və idarə olunması, işçilərin təhlükəsizlik qaydalarına riayət etməsi kimi bir sıra meyarlara görə aparılıb.

Layihə çərçivəsində qiymətləndirmədə iştirak edən və müvafiq meyarlara cavab verən bir sıra ictimai iaşə obyektlərinə xüsusi nişanlar təqdim olunub, onların dayanıqlılıq standartlarına uyğunluğu təsdiqlənib. Restoran girişində yerləşdiriləcək bu nişanlar qiymətləndirmə prosesindən uğurla keçmiş obyektlərin ekoloji dayanıqlılığını, müəyyənləşdirilmiş meyarların tələblərinə uyğunluğunu və etibarlılığını təsdiq edəcək. Sertifikatlaşmış bu restoranlar həmçinin COP29-un rəsmi veb-saytında mövcud xəritədə öz əksini tapacaq.

Əlavə edək ki, qiymətləndirmənin yekununda prosesdə iştirak etmiş hər bir ictimai iaşə obyektinə ekoloji dayanıqlılıq baxımından gələcək fəaliyyətlərinin təkmilləşdirilməsi və bu sahədə qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşmaları məqsədilə tövsiyələrdən ibarət hesabat təqdim olunub.




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



Bakı COP29-a hazırlaşır

# "Yaşıl paytaxt"ın yeni abadlıq ünvanı



## 200-dən çox ağac, 15 mindən çox kol, 2 fəvvarə, 2 dayanacaq, 4 enerjidoldurma məntəqəsi...

**Paytaxtda yeni parklar, bağlar, xiyabanlar salınır, ağaclar əkilir, yaşıllıq sahələri artırılır. "Yaşıl şəhər"ə çevrilən Bakıda son illər yaşıllaşdırma işləri daha da vüsət alıb. Xüsusən beynəlxalq əhəmiyyətli, mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına evsahibliyi edəcək bir vaxtda görülən abadlaşdırma işləri genişmiqyaslı xarakter daşıyır.**





















Sakinlərin istirahəti, asudə vaxt keçirməsi üçün son illərdə salınan "Gənclik", "Çəmbərəkənd", "Yasamal" və Mərkəzi, bundan əlavə, onlarca məhəllədaxili parkları misal göstərmək olar. Salınan parklarda, bağlarda əhalinin istirahəti üçün hər bir şərait yaradılır, eyni zamanda əvvəlki yaşıllıqlar saxlanılmaqla, yeni ağac və kol bitkiləri də əkilir.

### "28 May"ın yeni siması

Son olaraq Bakı Dəmiryol Vağzalının və "28 May" metrostansiyasının qarşısında görülən abadlıq və yenidənqurma işləri də göz oxşayır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yaxınlığında yerləşən ərazi Cəfər Cabbarlı meydanı kimi tanınır və ora göyərçinlərin yem üçün toplaşdığı məkandır.

Xatırladaq ki, dramaturq Cəfər Cabbarlının heykəltaraş Mirələsgər Mirqasımov tərəfindən hazırlanan heykəlinin 1982-ci il martın 23-də Ulu Öndər Heydər Əliyevin iştirakı ilə açılışı baş tutub. Abidə 2013-cü ildə yenidən bərpa edilib.

Bu ərazidə bir neçə ayda abadlıq işləri aparılaraq hazır vəziyyətə gətirilib. Ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.

Əgər əvvəl metrodan çıxan paytaxt sakinləri və qonaqlar avtomobillərlə dolu yol, qarışıqlıq görürdülərsə, bu gün onları gözəl mənzərə qarşılayır. Həm metroya üz tutanlar, həm də stansiyadan çıxan hər kəs ayaq saxlayıb bu gözəlliyə tamaşa edir, quraşdırılmış oturacaqlarda əyləşərək nəfəslərini dərir, hava qəbul edə bilirlər.

### "Yaşıl hədəf"ə doğru

Bu gün paytaxtda görülən yaşıllaşdırma, abadlaşdırma işlərinə birbaşa nəzarət edən Prezident İlham Əliyev bu ərazidə görülən işlərlə də yerində tanış olub. Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində bu gün ölkəmizin hər yerində, o cümlədən paytaxtda abadlıq-quruculuq işləri geniş hal alıb.

Sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasında yer alan Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsi istiqamətində həm Bakı şəhərində, həm də regionlarda görülən yenidənqurma, abadlıq işləri ölkəmizin qısa zamanda hədəfə çatacağından xəbər verir. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində belə işlərin genişlənməsi turistlərin, Bakı sakinlərinin rahatlığı ilə yanaşı, ətraf mühitin qorunması, sağlamlaşdırılması, ümumilikdə, ekoloji mühitin yaxşılaşdırılması məqsədi daşıyır. Görülən abadlıq işlərinə isə heç kəs etinasız yanaşmamalı, ətraf mühitin qorunması, təmiz olması üçün əlindən gələni əsirgəməməlidirlər. Necə? Elə ən xırda nüanslara diqqət edərək. Məsələn, əlimizdəki tullantıları zibil qutularına ataraq, yaşıllıqları zibilləməyərək, gülləri qırmayaraq...

Hava çirklənməsinin qarşısının alınmasında mühüm rol oynayan yaşıllıqları qorumaqla, görülən abadlıq işlərinə qiymət verməklə ətraf mühitin sağlamlaşdırılmasında biz də rol oynaya bilərik. Bununla Bakının "yaşıl mərkəz"ə çevrilməsinə töhfə vermiş olarıq.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*





## Bakı Olimpiya Stadionunda "COP29 - müvəqqəti gömrük nəzarət zonası" yaradılıb

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) gömrük məsələləri ilə bağlı müəyyən edilmiş tapşırıqlarla əlaqədar Dövlət Gömrük Komitəsində (DGK) "COP29 - Gömrük Komissiyası" yaradılıb və "Dövlət Gömrük Komitəsi tərəfindən görüləcək işlərə dair Tədbirlər Planı" hazırlanıb.**




DGK-dan AZƏRTAC-a bildirilib ki, tədbirlər planına uyğun olaraq, sürətli sərhəd keçidinin və rəsmiləşdirilmənin təmin edilməsi, təmassız yoxlamaların həyata keçirilməsində texnologiyalardan istifadə edilməsi, məlumatlandırma və maarifləndirmə istiqamətində müvafiq işlər həyata keçirilib. Tədbirin təşkili məqsədilə gətirilən material və avadanlıqların rəsmiləşdirilməsinin sürətləndirilməsi üçün Bakı Olimpiya Stadionunun ərazisində "COP29 - müvəqqəti gömrük nəzarət zonası" yaradılıb və orada fəaliyyət göstərən əməkdaşlar müəyyənləşdirilib.

"Ölkəmizə səfər edən şəxslərin özləri ilə gətirəcəkləri əşyaların elektron qaydada öncədən bəyan edilməsi prosesində təkmilləşdirilmələr aparılıb. Belə ki, sadələşdirilmiş gömrük bəyannamələrinin daha asan və sürətli tərtib edilməsi məqsədilə komitənin müvafiq portalında media nümayəndələri üçün mal adlarının qısa yol keçidləri hazırlanıb, həmçinin bəyannamələrin təsdiqinin "QR kod"la həyata keçirilməsi mexanizmi yaradılıb.

Təhlükəsizliyin gücləndirilməsi məqsədilə gömrük orqanları son texnoloji imkanlara cavab verən baxış-rentgen texnikaları, mobil və stasionar yoxlama baxış sistemləri, baqaj yoxlama cihazları və digər texniki nəzarət vasitələri ilə təmin edilib", - deyə məlumatda bildirilib.

Qeyd edilib ki, tədbir iştirakçılarının və ölkəyə gələn qonaqların gömrük qaydaları ilə bağlı məlumatlandırılması məqsədilə gömrük sərhədindən keçirilən mallarla bağlı qanunvericiliyin tələblərinə dair məlumatlandırıcı və izahedici videoçarxlar hazırlanaraq komitənin rəsmi internet səhifəsində yerləşdirilib, həmçinin cop29.az rəsmi internet saytına inteqrasiya olunub.

Eyni zamanda gömrük əməkdaşları üçün zəruri sahəvi biliklərin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində təlimlər keçirilib.

## COP29 keçiriləcək müddətdə nəqliyyat sıxlığının azaldılması ilə bağlı DYP hərəkət iştirakçılarına müraciət edib

**COP29 konfransı keçiriləcək müddətdə nəqliyyat sıxlığının azaldılması ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarına müraciət edib.**




AZƏRTAC-ın xəbərinə görə, müraciətdə xatırladılıb ki, mötəbər tədbirlərə ən yüksək səviyyədə evsahibliyi edən ölkəmiz yenidən dünyanın diqqət mərkəzindədir. Artıq noyabrın birinci ongünlüyündən başlayaraq paytaxtımız iqlim konfransı iştirakçılarını qəbul etməyə başlayacaq.

"Məlumat verildiyi kimi, beynəlxalq miqyaslı tədbirlə əlaqədar çoxsaylı qonaqların, rəsmi şəxslərin, eləcə də əhalinin rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə müvafiq konsepsiya hazırlanıb. Sistemli yanaşmaya əsaslanan həmin konsepsiyada COP29 müddətində paytaxtın bəzi küçə və prospektlərində fasilələrlə məhdudiyyətlərin tətbiq olunması nəzərdə tutulsa da, yolların uzunmüddətli bağlanmasına ehtiyac duyulmayıb.

Bununla yanaşı, Baş Dövlət Yol Polisi İdarəsi paytaxtda nəqliyyat sıxlığının azaldılması məqsədilə COP29 konfransı keçiriləcək müddətdə Bakı şəhərinə bitişik kənd və qəsəbələrdən, həmçinin respublikanın digər şəhər və rayonlarından paytaxta gələn vətəndaşlarımızdan ictimai nəqliyyat vasitələrindən istifadəyə üstünlük vermələrini, paytaxt sakinlərindən isə fərdi minik avtomobillərindən mümkün qədər az istifadə etmələrini, xüsusilə bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinin məhdudlaşdırılacağını nəzərə alaraq, həmin istiqamətlərdə əvvəlcədən göstəriləcək alternativ yollarla hərəkət etməyi xahiş edir.

Ümidvarıq ki, hər bir yol hərəkəti iştirakçısı verilən tövsiyələrə əməl etməklə ölkəmizin COP29-a uğurla evsahibliyi etməsinə töhfə verəcək, tətbiq ediləcək məhdudiyyətlərə anlayışla yanaşacaq, təşkilatçılara dəstək nümayiş etdirəcək", - deyə müraciətdə bildirilib.




# İvana VOJİNOVİÇ: "Azərbaycanın təmiz enerjiyə keçidi digər ölkələr üçün nümunə ola bilər"



**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkənin "yaşıl enerji"yə keçidində, eləcə də bərpaolunan enerjinin inkişafı məqsədlərinə nail olunmasında mühüm rol oynayacaq. Şübhəsiz ki, bu beynəlxalq konfransda "yaşıl enerji"yə qlobal keçidlə bağlı mühüm qərarlar qəbul ediləcək. Azərbaycan gələcəkdə ölkənin iqtisadi inkişafına dəstək olacaq "yaşıl enerji"nin Avropaya ixracı ilə bağlı layihənin həyata keçirilməsi üçün əhəmiyyətli tərəfdaşlar cəlb edə biləcək. Nəzərə alsaq ki, Azərbaycanın alternativ enerji mənbələri üçün çox böyük potensialı var, belə mühüm layihələrin həyata keçirilməsi istiqamətində beynəlxalq maliyyə kanallarının açılması "yaşıl enerji"nin yeni dövrünün başlanğıcı olacaq.**

**Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını Donja Qoritsa Universitetinin İqlim Dəyişikliyi Mərkəzinin direktoru və Monteneqro hökumətinin ətraf mühit üzrə sabiq baş direktoru İvana Vojinoviç cavablandırır.**

*- Sizcə, COP konfransları iqlim dəyişikliyinə qarşı mübarizəyə necə kömək edir?*

- COP konfransları inkişaf etməkdə olan ölkələri dəstəkləmək məqsədilə tərəqqini nəzərdən keçirmək və maliyyə mexanizmləri yaratmaq üçün demək olar ki, 200 ölkənin birləşməsində əsas rol oynayır. COP21-in ən əhəmiyyətli nəticələrindən biri də ölkələri temperaturun artımını 2°C-dən aşağı səviyyəyə qədər məhdudlaşdırmaq məqsədilə imzalanan əhəmiyyətli Paris müqaviləsi idi. COP konfransları həmçinin iqlim texnologiyalarında özəl sektorun investisiya qoyuluşuna təkan yaradır və qlobal böhranla mübarizə üçün çoxtərəfli əməkdaşlıq və iqlim diplomatiyasına töhfə verir. COP konfranslarının nəticələrinə milli səviyyədə təkmilləşdirilmiş şəffaflıq mexanizmləri və karbon bazarlarının işlənməsi ilə müəyyən edilmiş daha sərt iqlim öhdəlikləri daxildir. Bu cür keçirilən hər bir konfrans əvvəlki müqavilələrə əsaslanır, son nəticədə iqlimi dəyişdirmək üçün qlobal gündəm meydana gətirən daha iddialı iqlim hərəkətlərinə çağırır. Məsələn, COP26 konfransı ölkələri tədricən kömürdən istifadəni azaltmağa çağıran Qlazqoda iqlim paktının qəbul edilməsinə səbəb oldu. Şarm-əl-Şeyxdəki COP27 konfransı iqlim fəlakətlərindən əziyyət çəkən həssas ölkələrin "itkiləri və ziyanı" ödəmək üçün maliyyələşdirmə haqqında razılaşma ilə sona çatdı.

*- Bu ilin noyabrında Bakıda keçiriləcək COP29-dan gözləntiləriniz nədir?*

- Fikrimcə, 2024-cü il noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək COP29 qlobal iqlim gündəliyində mühüm məqamdır. Tədbirdə siyasi iradənin yenilənməsi və Paris Sazişinin məqsədlərinin həyata keçirilməsinin sürətləndirilməsi müzakirə olunacaq. Xüsusilə qarşıdan gələn iqlim sammiti "Truce COP" adlanacaq. O, sülhü təşviq etməklə eyni zamanda qlobal tullantıların 5-6 faizini təşkil edən hərbi fəaliyyətlərin də zərərli töhfə verdiyi anlayışı əks etdirərək qlobal atəşkəsə çağırmağa çalışacaq. Başqa sözlə, COP29 daha dinamik iqlim diplomatiyasına çağıracaq ki, bu da artıq beynəlxalq iqlim hüququnun yaradılması üçün əsas olub. İstənilən halda COP29 qlobal temperatur artımını 1,5°C-dən aşağı saxlamaq üçün əvvəlki öhdəliklərə əsaslanaraq, maliyyə, texnoloji və siyasi qərarlar üzrə müzakirələrə təkan verəcək. COP29-da Azərbaycan üçün qlobal iqlim fəaliyyətinin əsasını qoyması, iqlimlə bağlı iddialı maliyyə həllərini müdafiə etməsi və maraqlı tərəflər arasında əməkdaşlığı təşviq etməsi vacibdir. Bu, bütün dünya üçün həlledici əhəmiyyət kəsb edir.

*- COP29-un əsas məqsədləri hansılardır?*

- COP29 iqlim ambisiyalarının artırılmasına diqqət yetirəcək. Onun əsas məqsədi iqlim maliyyəsi üçün Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) tamamlanmasıdır. NCQG inkişaf etməkdə olan ölkələri dəstəkləmək məqsədilə inkişaf etmiş ölkələrin yerinə yetirilməmiş maliyyə öhdəliyini həyata keçirmək üçün nəzərdə tutulub. Bu yeni hədəfin daha əhatəli olacağı və həssas ölkələrin həqiqi maliyyə ehtiyaclarını əks etdirəcəyi gözlənilir. Digər əsas məqsəd karbon bazarlarını tənzimləyən və bazar mexanizmləri vasitəsilə qlobal iqlim maliyyələşdirməsini stimullaşdıra bilən Paris Sazişinin 6-cı maddəsinin həyata keçirilməsidir. Bu, çox vacibdir. Çünki düzgün işləyən karbon bazarları qlobal iqlim maliyyəsi üçün milyardlarla dollar səfərbər edə bilər və cari dövriyyəni ildə 2,5 milyard dollar artırar.

Bundan əlavə, COP29 Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC) nəzərdən keçirəcək və ölkələri 2025-ci ilin əvvəlinə qədər yenilənmiş NDC-ləri təqdim etməklə emissiyaların azaldılması üzrə öhdəliklərini gücləndirməyə çağıracaq. Milli uyğunlaşma planlarının təqdim edilməsi xüsusilə təşviq edilir, çünki iqlim böhranı qaçılmazdır və ölkələr iqlim dəyişikliyinin mənfi təsirlərinə uyğunlaşmalı, öz müqavimətlərini gücləndirməlidirlər. Diqqət həmçinin "yaşıl enerji" zonaların yaradılmasına və təmiz hidrogen istehsalına, həmçinin "yaşıl enerji"nin saxlanmasına yönəldiləcək. Azərbaycanın ev sahibi kimi rolunu nəzərə alaraq, konfrans iqlim dəyişikliyinin azaldılması üçün regional strategiyaların əhəmiyyətini vurğulayacaq. COP29 danışıqlardan daha çox icraya yönələcək gələcək konfranslar üçün zəmin yaradacaq.

*- Qlobal "yaşıl transformasiya" mümkündürmü və bu yolda hansı problemlər mövcuddur?*

- Qlobal "yaşıl transformasiya" geniş miqyasda kompleks enerji dəyişikliklərini tələb edən nəhəng çağırışdır. Lakin mən bunun mümkün olduğuna qəti şəkildə inanıram. Bu transformasiyanın əsas aspektlərinə enerji sistemlərinin karbonsuzlaşdırılması, sənayelərin qalıq yanacaqlardan uzaqlaşdırılması və tullantıların, resurs istehlakının azaldılması üçün dairəvi iqtisadiyyat prinsiplərinin inkişafı daxildir. "Avropa Yaşıl Sövdələşmə" və ABŞ-nin "İnflyasiyanın azaldılması aktı" kimi beynəlxalq öhdəliklərlə birlikdə texnologiyanın inkişafı ümidverici sürət göstərir. Ən böyük problemlərdən biri, xüsusən də inkişaf etməkdə olan ölkələr üçün keçid dövrünün maliyyələşdirilməsidir. Məsələn, Beynəlxalq Enerji Agentliyinin (IEA) xalis sıfır yol xəritəsində deyilir ki, qlobal istiləşməni 1,5°C ilə məhdudlaşdırmaq 2030-cu ilə qədər hər il 4,5 trilyon dollar təmiz enerji investisiyası tələb edir. İradə və idarəetmə ilə bağlı siyasi məsələlər, həmçinin qalıq yanacaqlardan asılılıq və qurulmuş sənayelərin müqaviməti qlobal "yaşıl transformasiya"nı çətinləşdirir. Sənayeləşmiş ölkələrin qalıq yanacağa əsaslanan geniş enerji infrastrukturu onlara bu resursdan istifadəni davam etdirmək üçün güclü stimul verir. Bu çağırışlara baxmayaraq, Paris Sazişi kimi beynəlxalq müqavilələr əsasında və öhdəliklərlə dəstəklənən qlobal "yaşıl keçid" irəliləyir. Dəniz küləyi, günəş enerjisi və akkumulyator anbarı kimi təmiz enerji texnologiyalarında yeniliklər də "yaşıl transformasiya"nı daha əlçatan edir. Aİ-də bərpaolunan enerjiyə keçid də ümid verir. 2024-cü ilin birinci yarısı enerji keçidində əsaslı nailiyyətlərlə yadda qaldı. Məhz günəş-elektrik stansiyaları və külək stansiyaları ilk dəfə olaraq elektrik enerjisi istehsalında qalıq yanacaqları ötüblər.

*- COP29 inkişaf etməkdə olan ölkələr üçün iqlimin maliyyələşdirilməsinin yeni səviyyələrini təmin edəcəkmi?*

- İnkişaf etməkdə olan ölkələr üçün adekvat iqlim maliyyəsinin yaradılması konfranslarda təkrarlanan məsələ idi. COP29-un iqlimin maliyyələşdirilməsi üçün yeni bir baza yaratmağa çalışacaq əhəmiyyətli bir irəliləyiş gətirəcəyi gözlənilir. Konfransın inkişaf etməkdə olan ölkələri dayanıqlı infrastruktur qurmaq və "yaşıl inkişaf"ları təşviq etmək üçün lazım olan resurslarla təmin edəcəyi gözlənilir. Fikrimcə, bu, etimadın yaradılması və bütün dünyada iqlimlə bağlı daha iddialı fəaliyyətin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edəcək. Nəticə etibarilə COP29-un inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsinin dəyişdirilməsində mühüm rol oynayacağı gözlənilir. İqlim böhranının artan aktuallığını nəzərə alaraq, COP29 ənənəvi hökumət maliyyələşdirməsini tamamlamaq üçün özəl sektorun iştirakı, "yaşıl istiqraz"lar və karbon qiymətləri kimi innovativ maliyyələşdirmə mexanizmlərini də araşdıra bilər. Yeni maliyyələşdirmə sazişinin əldə olunmasında uğur, maliyyə çatışmazlığının aradan qaldırılmasında mühüm addım olacaq. COP29-da uğurlu nəticə həm də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında olan itirilmiş etimadı bərpa edə bilər. Keçmiş konfranslardan gördüyümüz kimi, maliyyə öhdəliklərindəki gecikmələr qlobal iqlim tərəqqisinə mane olub, bəzi inkişaf etməkdə olan ölkələr artıq inkişaf etmiş ölkələrin verdiyi vədlərə şübhə ilə yanaşır. Əgər COP29 mənalı və proqnozlaşdırıla bilən maliyyə mənbələrini təmin edə bilsə, bu, iqlim fəaliyyətində daha güclü qlobal öhdəliyə işarə edəcək.

*- Azərbaycanın azad edilmiş ərazilərini "yaşıl enerji" zonasına çevirmək imkanlarını necə qiymətləndirirsiniz?*

- Azərbaycanın azad edilmiş əraziləri "yaşıl enerji" zonasına çevrilmək üçün əhəmiyyətli potensiala malikdir. Azərbaycan bölgənin bol günəşli və külək ehtiyatlarından istifadə edərək bu ərazilərdə bərpaolunan enerji layihələrinin inkişafı planlarını açıqladı. Beynəlxalq tərəfdaşlıq və investisiyaların dəstəyi ilə Azərbaycan günəş stansiyaları və külək dəyirmanlarını əhatə edən bərpaolunan enerjinin böyük infrastrukturunu yarada bilər. Bu tədbirlər həm daxili enerji təhlükəsizliyinə, həm də regional enerji ixracatına töhfə verir. Azərbaycanın mövcud infrastrukturu bu əraziləri "yaşıl enerji" mərkəzinə çevirmək imkanını daha da artırır. "Yaşıl enerji" dəhlizlərinə və geniş regional enerji şəbəkələrinə inteqrasiya Azərbaycanı Qafqazda bərpaolunan enerjiyə keçidində əsas oyunçuya çevirir. Bu təşəbbüs Azərbaycanın enerji ixracını şaxələndirmək, qalıq yanacağından asılılığı azaltmaq və ölkə üçün sabit enerji gələcəyi yaratmaq məqsədlərinə uyğundur.

*- Bərpaolunan enerji mənbələrinin ixracatçısı olaraq Azərbaycanın potensialını necə görürsünüz?*

- Azərbaycan xüsusən günəş və külək enerjisi sahəsində bərpaolunan enerji mənbələrinin əhəmiyyətli bir ixracatçısı ola bilər. Ölkənin iqlimi və coğrafi üstünlükləri onu bərpaolunan enerji mənbələrinin layihələri üçün ideal yerə çevirir. Azərbaycan artıq bu sahədə irəliləyiş əldə edir, beynəlxalq sərmayələri cəlb edir və təmiz enerji istehsalı ilə bağlı iddialı hədəflər qoyur. "Yaşıl enerji" infrastrukturunu genişləndirməklə Azərbaycan bərpaolunan elektrik enerjisi ilə təkcə ölkə daxilində deyil, həm də qonşu ölkələri təmin edə, regional enerji keçidinə töhfə verə bilər. Bu dəyişiklik təkcə Azərbaycanın iqlimlə bağlı öhdəliklərini yerinə yetirmir, həm də Avropa və Asiya üçün təmiz enerji təminatçısı kimi onun geosiyasi əhəmiyyətini artırır.

Azərbaycanın bərpaolunan enerji potensialı qlobal enerji sisteminin sıçrayış texnologiyaları və ya gələcək sütunları kimi qiymətləndirilən təmiz hidrogen və enerjisaxlama texnologiyalarının inkişafı üzrə strateji təşəbbüsləri ilə dəstəklənir. Azərbaycanın təmiz enerjiyə keçidi bərpaolunan mənbələrdən istifadə etmək istəyən digər qalıq yanacaqdan asılı olan ölkələr üçün nümunə ola bilər.

# "Biz çox şadıq ki, COP29 Azərbaycanda keçirilir"

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin başlaması ərəfəsində ölkəmizə qarşı müxtəlif siyasi dairələrdən edilən hücumların Azərbaycanı qarşısına qoyduğu hədəflərdən yayındırmaq məqsədi daşıdığı məlum məsələdir.**




Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi qərəzli və obyektivlikdən tamamilə uzaq qətnamə də məhz bu hücumların tərkib hissəsidir.

Halbuki COP29-la bağlı Azərbaycanın irəli sürdüyü təşəbbüslərin məzmunu göstərir ki, bu gün Cənubi Qafqazda sülhün təmin olunması üçün ölkəmiz kifayət qədər ciddi səy göstərir. COP29 gündəliyinə daxil edilən 14 böyük təşəbbüsdən birinin məhz sülhün, dialoqun və barışığın daha geniş şəkildə təbliği, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıması da təsadüfi deyil. Azərbaycan COP29-a evsahibliyi etməklə iqlim dəyişmələrinə qarşı mübarizə kimi mühüm qlobal məsələdə nümunəvi liderlik nümayiş etdirir. Məqsəd bütün dövlətlərin "yaşıl", ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyinə nail olmaq, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaqdır.

Qlobal tədbirlə bağlı az müddətdə aparılan bütün hazırlıqlar da diktə edir ki, bu məqsədə kölgə salanlar arzularına çatmayacaqlar. COP29 Azərbaycanda keçiriləcək və buna ağız büzənlər ölkəmizin bərpaolunan enerji sahəsində ciddi geosiyasi oyunçuya çevrilməsinə şahid olacaqlar. Azərbaycan Paris Sazişinin müddəalarının həyata keçirilməsi üçün tədbirlər görür, şəffaflığın artırılması, iqlim maliyyələşməsinin dəstəklənməsi və enerjiyə qənaət edən texnologiyaların tətbiqi istiqamətində təşəbbüslər göstərir. Ona görə də qlobal tədbirdə iştirak edəcək dövlətlər Azərbaycanın qısa müddətdə COP29-a çox yaxşı hazırlaşdığını, konfransa istənilən səviyyədə evsahibliyi edəcəyini yüksək dəyərləndirirlər. Belarusun Gürcüstandakı səfiri Anatoliy Lis fikirlərini belə bölüşüb: "COP29-un Azərbaycanda keçirilməsi çox ciddi təşəbbüsdür və Prezident İlham Əliyevin xidmətlərinin nəticəsidir. Çünki bu gün dünyanı düşündürən ən vacib məsələlərdən biri iqlim dəyişikliyi məsələsidir. Ola bilər, bir çox insan hələ də bu problemin ciddiliyini başa düşmür. Lakin diqqət etmək lazımdır ki, alternativ enerji dövrüdür. Günəşdən, küləkdən, sudan enerji istehsalı zamanıdır. Düşünürəm ki, Azərbaycanın bu istiqamətdə təşəbbüsü təqdirəlayiqdir və alqışlanmalıdır".

Vaşinqtondan olan xarici siyasət və energetika üzrə ekspert Umud Şokrinin söylədikləri də maraqlıdır: "Bu cür konfranslar qlobal iqlim hədəflərinin müəyyən edilməsi, siyasət dəyişikliklərinə təkan vermək və beynəlxalq danışıqları asanlaşdırmaq üçün vacibdir. "Maliyyə COP-u" adlandırılan bu konfransın məqsədi inkişaf etməkdə olan ölkələrin aşağı emissiyalı iqtisadiyyatlara keçidi üçün maliyyə təmin etmək və onların iqlim dəyişikliyinə davamlılığını artırmaqdır. COP29 iqlim böhranı ilə mübarizə aparmaq və davamlı inkişafa doğru yol göstərmək üçün lazım olan qlobal çərçivəni daha da gücləndirə bilər".

Əslində, iqlim dəyişmələri heç bir ölkənin sığortalana və təkbaşına mübarizə apara bilməyəcəyi qlobal problemdir. Ona görə də dünyanın bu istiqamətdə birlik nümayiş etdirməsi yeganə çıxış yoludur. Bu gün isə həmin yol Azərbaycandan keçir. Çinin Ekologiya və Ətraf Mühit Nazirliyinin İqlim dəyişikliyi departamentinin direktoru Sia İnsian bu gerçəkliyi ölkəsinin COP29-un uğurlu nəticələr əldə etməsi və qlobal iqlim fəaliyyəti üçün bütün ölkələrlə birlikdə səy göstərməyə hazır olması ilə təsdiqləyir: "Çin nümayəndə heyəti Paris İqlim Sazişinin tələblərinin yerinə yetirilməsi üçün COP29-un işində konstruktiv rol oynamağa, ev sahibi Azərbaycanla və müvafiq tərəflərlə çalışmağa davam edəcək. Çinin COP29-dan ən böyük gözləntisi danışıqların uğurla nəticələnməsi və qarşıya qoyulan hədəflərə nail olunmasıdır. Hesab edirik ki, COP29 iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın əvəzolunmazlığını nümayiş etdirəcək".

COP29 iqlimlə mübarizədə kritik bir məqamdır və bu tədbirdə konkret nəticələr əldə olunması çox əhəmiyyətlidir. Əhəmiyyət daşıyacaq həmin nəticənin əldə olunacağı məkan isə Azərbaycandır. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil həmin nəticəni əldə etmək üçün bəyanat verib: "Ölkələrin nümayəndələri COP28-də BƏƏ Konsensusunda verilən vədləri (bərpaolunan enerjinin üç dəfə artırılması, qlobal uyğunlaşma məqsədi, bütün qazıntı yanacaqlarından uzaqlaşma, insanların və onların dolanışıq vasitələrinin tam müdafiəsi) həyata keçirmək və həmin qərarları real nəticələrə çevirmək üçün Bakıya gəlməlidirlər".

Saymon Stilin çağırışına səs verərək ikihəftəlik konfransın işində fəal olacaqlarını, COP29-da ilk dəfə öz pavilyonlarını təqdim edəcəklərini bildirən qardaş Qazaxıstan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müşaviri Saken Kalkamanov deyib: "Azərbaycan qardaş və tərəfdaş respublika kimi bizim dəstəyimizi alır. Biz də digər Mərkəzi Asiya ölkələri və türk dövlətləri ilə birlikdə bu tədbirdə fəal iştirak edəcəyik".

Pakistan Baş nazirinin iqlim dəyişikliyi və ətraf mühit üzrə koordinatoru Romina Xurşid Alam isə ölkəsinin COP29-da daha çox iqlim maliyyəsinin ayrılmasına tərəfdar olacağını bildirib. O, bu sözləri İslamabadda "PreCOP29 dialoq: Dubaydan Bakıya yol" adlı tədbirdə çıxışı zamanı söyləyib. Üstəlik də Pakistanın COP29 zamanı güclü mövqe ortaya qoyacağını bildirərək, danışıqlarda əsas diqqətin iqlim maliyyəsi, uyğunlaşma və dayanıqlılıq kimi bir neçə məsələyə yönələcəyini vurğulayıb.

Bədxahlardan fərqli olaraq dost ölkələr, qardaş dövlətlər bilirlər ki, Azərbaycan COP29-a evsahibliyi etməklə bəşəriyyətə, sülhə, gələcəyimizə və insanlığa böyük ehtiramını nümayiş etdirir. Bunu Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver tədbirə verdiyi dəyərin fonunda söyləyir: "Biz bu tədbiri Azərbaycanın sabitlik, sülh və insanlığın gələcəyi naminə bir çağırışı kimi qəbul edirik. Çünki Azərbaycanın bu sahədə irəli sürdüyü dəvət yalnız ətraf mühit, iqlim, yaşıllıq və su problemləri ilə məhdudlaşmır. Bu həm də insanlığın qarşı-qarşıya olduğu müharibələrə, münaqişələrə, soyqırımlarına, məcburi köçkünlərə qarşı bir həmrəylik yaratmaq ideyasını əhatə edir".

COP29 sessiyasında Türkiyənin 2053-cü ilə qədər xalis sıfır emissiya hədəfi çərçivəsində Uzunmüddətli İqlim Strategiyası açıqlanacaq. Türkiyə həmçinin tədbirdə 2026-cı ildə keçirilməsi nəzərdə tutulan COP31-ə evsahibliyi etməkdə qərarlı olduğunu vurğulayacaq. Qeyd edək ki, COP29-da Türkiyə pavilyonunda keçiriləcək tədbirlər arasında Prezident Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşı Əminə Ərdoğanın himayəsində həyata keçirilən "Sıfır tullantı" layihəsi, enerji sektorunun gələcəyi, sərhəddə karbon tənzimləmə mexanizmi və bunun Türkiyəyə, eləcə də iqlim dəyişikliyinin demoqrafik quruluşa və sağlamlığa təsirləri kimi mövzular yer alacaq.

Qeydlərimizi Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin sözləri ilə tamamlamağı məqsədəuyğun sayırıq: "Biz çox şadıq ki, COP29 konfransı Azərbaycanda keçirilir. Bu tədbirdə iqlim maliyyələşdirilməsi kimi çətin məsələlər müzakirə olunacaq. Bütün müzakirələrdə və tədbirlərdə iştirak edəcəyik".

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# COP29-un yeni versiyada rəqəmsal məlumat platforması istifadəyə verilib

**11-22 noyabrda Bakıda keçiriləcək COP29 konfransının rəsmi rəqəmsal məlumat platformasının yenilənmiş versiyası istifadəyə verilib. Təkmilləşdirilmiş versiyada olan veb-sayt COP29 konfransı ilə bağlı maraqlı tərəflərin əhatəli məlumatla təmin olunmasına xidmət edir.**

AZƏRTAC xəbər verir ki, bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkəti məlumat yayıb.

Konfrans iştirakçıları, yerli və beynəlxalq media, ictimaiyyət üçün iqlim konfransına dair ən aktual məlumatları operativ şəkildə təqdim edən yeni veb-sayt inklüzivlik və müyəssərlik tələbləri nəzərə alınaraq hazırlanmışdır. Veb-sayt görmə məhdudiyyətli şəxslər üçün xüsusi uyğunlaşdırılmış interfeysi təmin edərək, hər kəsin rahat və sərbəst istifadəsinə imkan yaradır.

Yenilənmiş resurs qlobal iqlim konfransının mediada geniş işıqlandırılması üçün mətbuat nümayəndələrinə ən son məlumatlara çıxış imkanı verir. Rəqəmsal məlumat platformasında COP29-la əlaqədar informasiyaların operativ şəkildə yenilənməsi medianın




dəqiq və vaxtında məlumat almasına imkan verir. COP29 rəsmi veb-saytının digər mühüm yeniliklərindən biri media nümayəndələrinin COP29-la əlaqədar tədbirlərdən çəkilmiş yüksəkkeyfiyyətli foto və videoları əldə edə biləcəyi ekslüziv multimedia qalereyasıdır. Bu resurs jurnalistlərə COP29-un əhəmiyyətini geniş auditoriyaya daha təsirli şəkildə çatdırmaq üçün peşəkar vizual materiallardan istifadə etməyə fürsət yaradır.

İstifadəçilərin məlumatlara çıxışını təmin edən tez-tez verilən suallar (FAQ) bölməsində isə konfransda iştiraka dair hər kəsi maraqlandıran aktual suallar və cavablar əhatə olunub və bu bölmə mütəmadi olaraq yenilənir. Bundan əlavə, yeni veb-saytda istifadəçilər üçün real vaxtda sualların cavablandırılması üçün "Chatbox" xidməti də istifadəyə verilib. Bu xidmət istifadəçilərin konfransın təşkilati və texniki detalları barədə informasiya əldə etməsini asanlaşdırır.

COP29 rəqəmsal məlumat platformasında iştirakçılar üçün konfransın "mavi" və "yaşıl" zonalarında yerləşəcək pavilyonlarla bağlı məlumatlar, qonaqlama, e-viza, akkreditasiya, qidalanma, tədbir məkanında naviqasiya və digər xidmətlər haqqında geniş məlumatlar da yer alıb.



## Səndən ötrü can verməyə cümlə hazırız,
## Səndən ötrü qan tökməyə cümlə qadiriz!..

**Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə canından keçmiş Vüsal Şakir oğlu Allahyarovun valideynləri, doğmaları ilə görüşmək, onun ömür və döyüş yolu ilə yaxından tanış olmaq üçün Sumqayıt şəhərinə üz tutduq. Əvvəllər Sumqayıta "gənclər şəhəri" deyirdilər. Çox doğru da edirdilər. Amma bir şeyi demirdilər ki, bu şəhərdə doğulub böyüyən gənclər çox vətənpərvər və cəsurdurlar. Sumqayıtlı gənclər bunu 44 günlük Vətən müharibəsində də cəsarət və igidlikləri ilə sübut etdilər.**





# Vüsala yetməyən ömür

## "Qanı töküldüyü yeri öpəndə torpaqdan oğlumun qoxusunu aldım"

Bir gün əvvəldən zəng vurub, şəhidin qardaşı Vüqarla danışıb gəlişimizin məqsədini bildirmişdik. O da "xoş gəlirsiniz" deyib yolumuzu gözləyəcəyini demişdi. Səhəri gün görüş yerinə vaxtında çatdıq. Vüqarla görüşüb onun idarə etdiyi maşının arxasınca yaşadıqları ünvana doğru getdik. Sumqayıt şəhərinin qədim kəndlərindən biri olan Coratın bir-birinə bənzəməyən küçələri ilə sağa-sola burula-burula yolumuzdan qalmadıq. Nəhayət, çox da geniş olmayan küçələrdən birində dayandıq.

Küçədən həyətə keçəndə bizi şəhidin atası, üz-gözündən nur tökülən Şakir kişi qarşıladı. Az keçmiş qapının ağzında bir zamanlar Vüsalı dünyaya gətirmiş, tərbiyə verib böyütmüş, indi saçlarına dən düşmüş Nərgiz ana da göründü. Vüsalın şəhid olduğu gündən dördillik zaman keçməsinə baxmayaraq, doğmalarının gözlərindən, çöhrələrindən hələ də kədər çəkilməmişdi. Amma bu kədərli baxışlarda bir qürur, bir əzəmət də sayrışırdı.

### Sevinclə dolub-daşan illər

Evlərində Vüsala həsr olunmuş xatirə guşəsi düzəldilib. Guşəyə onun şəkillərini, şəxsi əşyalarını, geyimlərini qoyublar. Qəhrəmanın guşədəki şəkillərinə baxa-baxa Vətən üçün cəsur oğul böyütmüş valideynlərlə söhbət edirik. Söhbətimiz bizi Vüsallı günlərə, sevinclə dolub-daşan illərə aparır. O illərə ki onda ailə ən xoşbəxt günlərini yaşayırdı. Öyrəndik ki, baş çavuş Vüsal Şakir oğlu Allahyarov 1988-ci il aprelin 22-də Sumqayıt şəhərində dünyaya göz açıb. Şəhərdəki 9 saylı tam orta məktəbdə oxuyub. Nümunəvi davranışı ilə müəllimlərinin, şagird yoldaşlarının hörmət və rəğbətini qazanıb.

Hələ kiçik yaşlarından Vüsal idmana da maraq göstərib. Bu sevgi, bu maraq onu yeniyetməlik vaxtlarından Sumqayıtdakı "Dinamo" İdman Cəmiyyətinə gətirib çıxarıb. Çox keçməyib ki, Vüsal burada məşqlərə başlayıb. Həmin vaxtlardan da onun uğurlara gedən yolunun təməli qoyulub. Məşqçisi İbrahim İbrahimov həvəsini, fiziki göstəricilərini nəzərə alaraq Vüsalı gələcək mötəbər yarışlarda idmançı kimi hazırlamağa başlayıb. Məşqlərdə fəal iştirak edən Vüsal daim hazırlığını artırıb, cüdo idman növünün sirlərinə yiyələnib. İştirakçısı olduğu yarışlarda tatami üzərinə qələbə əzmi ilə çıxaraq məşqçinin ona bəslədiyi etimadı doğruldub, məharəti və bacarığı ilə fərqlənib. Uğurları ilə doğmalarını sevindirib. Gənc idmançı Vüsal Allahyarov Azərbaycan cüdosunun 30 illiyinə həsr olunmuş açıq birincilikdə də iştirak edib. Qarşılaşdığı rəqiblərə qalib gələrək 3-cü pilləyə çıxıb. Buna görə fəxri fərmanla mükafatlandırılıb.

İdmana maraqla bərabər, Vüsal hələ orta məktəbdə oxuduğu vaxtlardan hərbçi peşəsinə də rəğbətlə yanaşıb. Əyninə forma geyinib hərbçi olacağı, Vətəninə xidmət edəcəyi günün arzusu ilə yaşayıb. Ötüb arxada qalan illər yavaş-yavaş onu arzularına yaxınlaşdırıb. Axır ki, günlərin birində Vətənə əsgər olmağın zamanı gəlib çatıb. 2008-ci ilin iyul ayında, isti yay günlərinin birində yaşıdları ilə bərabər o da ordu sıralarına yollanıb. Qismətinə ön xətdə xidmət etmək düşüb. Elə ilk günlərdən silahların sirlərinə dərindən yiyələnən Vüsal təlim-məşqlərdə də fiziki hazırlığının yüksək olduğunu göstərib. O, üzərinə düşən döyüş tapşırıqlarını böyük sevgi və məhəbbətlə yerinə yetirib. V.Allahyarov hərbi hissənin idman həyatında fəal iştirak edib. Komandirlərinin və əsgər dostlarının rəğbətini qazanıb. Vüsal Allahyarov 2010-cu ilin yanvarında ordu sıralarından tərxis olunub. Həmişə, hər yerdə nümunəvi olduğuna görə valideynlərinin, doğmalarının yanına alnıaçıq, başıuca qayıdıb.

### Vüsal peşəkarlığın rəmzi olan "zoğalı beret" daşıyırdı

Xidmətdən geri döndükdən sonra Vüsal evdə çox oturmayıb. Gələcəyini qurmaq üçün inamlı və qəti addımlar atıb. Həyatını orduya bağlayıb, yenidən Vətənə əsgər olub. 3 may 2011-ci ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi işə başlayıb. "N" hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, snayper, yarımqrup komandiri, snayper qrupunda yarımqrup komandiri vəzifələrini icra edib. Harada xidmət edibsə, harada olubsa, üzərinə düşən tapşırıqları bacarıqla yerinə yetirib.

Xidmətinin ilk günlərindən təlim-məşqlərdə fəal iştirak edərək daim hazırlığını artırıb. İdmançı olmağı onun uğurlara gedən yolunu bir az da asanlaşdırıb, qarşısında yaşıl işıq yandırıb. Peşə hazırlığı sınaqlarında qazandığı nailiyyətlərə görə ona "zoğalı beret" daşımaq səlahiyyəti verilib. Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanının 16 sentyabr 2016-cı il tarixli müvafiq əmrinə əsasən, Vüsala "zoğalı beret" daşıma hüququ verilib. Bu uğur onu daha da ruhlandırıb.

Vüsal Allahyarov təkcə hərbi hissədəki təlim-məşqlərdə deyil, qardaş Türkiyə Respublikasında keçirilən müvafiq kurslarda da peşəkarlığını, hazırlığını artırıb. Hərbi sahəyə böyük maraq göstərən Vüsal Allahyarov 2017-ci ilin avqust ayından 2018-ci ilin yanvar ayınadək bu ölkənin Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının Foçadakı Komando Məktəbində komando təməl kursu çərçivəsində ayrı-ayrı istiqamətlər üzrə təlim mərhələlərindən keçib. Burada da özünü bacarıqlı hərbçi kimi göstərib.

Həmişə uğur qazanmağa alışmış Vüsal hərbi xidmət illərində baş çavuş hərbi rütbəsinədək yüksəlib. Qarşıya qoyulan tapşırıqları bacarıqla, peşəkarlıqla yerinə yetirərək komandanlığın etimadını doğruldub. Xüsusi təyinatlı dəstənin hərbi qulluqçusu kimi Vüsal daim öz üzərində çalışıb. Təlimlərdə taktiki hazırlıq üzrə biliklərə, silahların atış qaydalarına dərindən yiyələnib. Nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb. Daxili işlər nazirinin 27 iyun 2020-ci il tarixli müvafiq əmrinə əsasən, III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

### Döyüş yolu Füzulidən başlayıb

2020-ci il sentyabrın 27-də erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda onları da əks-hücum əməliyyatlarına cəlb ediblər. Vüsalın döyüş yolu Füzuli rayonundan başlayıb. Əks-hücum əməliyyatlarında böyük hünər və rəşadət göstərən Vüsal Allahyarov Şuşaya qədər şərəfli döyüş yolu keçib. Bu şəhər uğrunda gedən döyüşlərdə də cəsarətlə vuruşub. Ayağı musiqi beşiyimiz olan bu müqəddəs məkana dəyib. Dəqiq atəş zərbələri ilə neçə-neçə erməni işğalçısını məhv edib. Noyabrın 6-da Şuşada üzərinə düşən döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Torpaqlarımızın azadlığı uğrunda gedən əməliyyatlarda canından keçmiş Vüsal Allahyarov 12 noyabr 2020-ci ildə Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Həmin kədərli günləri xatırlayan qardaşı Vüqar Allahyarov dedi: "Vüsal cəbhəyə yola düşəndən sonra daha çox mənə zəng vururdu. Danışığı qısa olurdu. Bu əsasən onun asudə vaxtlarında olurdu. O, döyüşlərdən həvəslə söz açırdı. Qarabağı addım-addım ermənilərdən azad etdikcə onun səsində bir qürur duyulurdu. Artıq döyüşlər musiqi beşiyimiz olan Şuşaya yaxınlaşırdı. Qardaşım son zəngində məxfiliyi qorumaq xatirinə ad çəkmədi, eləcə dedi ki, qarşıda bizi mühüm bir əməliyyat gözləyir. Sonra onun zənglərinin arası kəsildi. Bundan yaman nigaran qaldıq. Vüsalın son zəngindən iki gün sonra çox kədərli bir xəbər eşitdik. Döyüşçü yoldaşı Xəyal Məmmədov zəng vurub göz yaşı içində qardaşımın Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhid olduğunu dedi. Bu acı xəbər bizi çox üzdü, çox sarsıtdı.





Doğmaların itkisi dözülməz, ağır olur. Təskinliyimizi yalnız onda tapdıq ki, Vüsal torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid olsa da, qardaşımın cəsədinin hara aparıldığını öyrənə bilmirdik. Əvvəlcə dedilər ki, Şuşa uğrunda şəhid olanları Hadrut qəsəbəsinə aparıblar. Sonra zəng vurub xəbər verdilər ki, Şuşada şəhid olanları Füzuli rayonundakı xəstəxanaya gətiriblər. Artıq döyüşlər dayanmış, Ermənistan silahlı qüvvələri diz çökdürülmüşdü. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında düşmənə qalib gəlmişdi, erməni işğalçıları üzərində tarixi Zəfər çalınmışdı. Qazanılmış bu Zəfər də doğmalarını itirmiş insanlar üçün böyük təsəlli idi. Noyabrın 11-də qardaşımın nəşini gətirmək üçün cəbhə bölgəsinə yola düşdük. Vüsalın cənazəsi Füzuli rayonundakı xəstəxanada idi. Onu götürüb şəhərə gətirdik. Noyabrın 12-də Vüsalı Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırdıq. Mən həmişə qardaşımla, onun qəhrəmanlığı ilə fəxr edəcəyəm. Küçəmizin giriş hissəsində Vüsala abidə-bulaq kompleksi düzəltmişik. Hər gün buradan keçən insanlar bu bulaqdan su içir, onun ruhuna dualar oxuyurlar".

### Vüsalın səsini göz yaşı içində dinlədik

Vüsalın valideynləri ilə söhbət edərkən onların çox zəhmətkeş insanlar olduqlarını gördük. Atası Şakir Allahyarov dedi ki, oğul itirmək ağır dərddir: "Amma Vüsal ölümü ilə başımızı el içində daha da ucaltdı. Onunla fəxr edirəm və həmişə də fəxr edəcəyəm. 19 noyabr 2022-ci ildə oğlum Vüqarla Şuşaya getmişdik. Axtara-axtara Vüsalın şəhid olduğu ərazini tapdıq. Əyilib onun qanı töküldüyü yeri öpdüm. Həmin an sanki torpaqdan oğlumun qoxusunu aldım. Qürur duydum ki, Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə Vüsal da vuruşub və böyük qəhrəmanlıq göstərib. Qəhrəman bir oğul atası olmağımdan qürur duyuram".

Şakir kişi sözünü bitirdikdən sonra telefonunu masanın üstünə qoydu. Dedi ki, Vüsalın dostlarından birinə göndərdiyi səs yazısı var. Tez-tez onun səsinə qulaq asıb Vüsallı günlərini xatırlayır. Ata ilə bərabər biz də oğlunun səsinə qulaq asdıq. Vüsal dostlarından birini toy günü münasibətilə təbrik edirdi. Ona xoşbəxtlik arzulayır, xoş sözlər deyirdi. Şəhidin səsinə qulaq asa-asa bir anlıq düşüncələrimizlə baş-başa qaldıq. Sanki həmin anlarda Vüsal gözlərimiz qarşısında canlandı. Onun səsindən də bir ötkəmlik, bir mübarizlik duyulurdu. Bir neçə dəqiqə çəkən səsyazması başa çatdı. Xəyaldan ayılıb başımızı yuxarı qaldıranda Vüsalın doğmalarını gözüyaşlı gördük...

Atası Şakir kişi sözünə davam edərək dedi ki, Vüsal pak və vicdanlı, namaz qılan, oruc tutan iman adamı idi. Kiminsə xətrinə dəyməz, kiməsə acı bir söz deməzdi. Kiçiklə kiçik, böyüklə böyük idi: "Oğlum yaddaşımda bir şəxsiyyət kimi qalıb. Onu elə həmişə bu cür də xatırlayacağam".

Anası Nərgiz Allahverdiyeva Sumqayıt Şəhər Uşaq Xəstəxanasında kiçik tibb bacısı işləyir. Nərgiz xanım oğlunun uşaqlığını xatırlayaraq dedi ki, Vüsal çox sakit, mülayim təbiətli uşaq idi: "Nə vaxtsa sözümdən çıxdığını xatırlamıram. O, övlad kimi övlad, dost kimi dost idi. Məktəbə vaxtında gedib-gələr, dərslərini də yaxşı oxuyardı. Nizam-intizamlı olduğuna görə müəllimlər heç vaxt ondan şikayət etməzdilər. Hərbçi olmağı da özü seçmişdi. Vətənə, torpağa bağlı idi. Döyüşlərə getdiyini eşidəndə çox narahat oldum. Amma şəhid olacağına inanmırdım. Çünki Vüsal çox peşəkar hərbçi idi. Qarabağı görməsə də, o gözəl yerləri çox sevirdi. Qismətə bax ki, elə Qarabağın tacı olan Şuşada şəhid oldu. Oğlumun qəhrəmanlığı ilə həmişə fəxr edəcəyəm".

### Adı əbədiləşdirilən Vüsal həmişə xatirələrdə yaşayacaq

Şəhid anası sözünə davam edərək dedi ki, Sumqayıt Cümə məscidinin axundu Hacı Rauf Sərdarovun təşkilatçılığı ilə bir qrup şəhid ailəsi ilə birlikdə Füzuli rayonuna gediblər: "Burada bir çox yeri gəzdik. Mənim üçün ən yaddaqalan Vüsalın nəşinin yuyulduğu məscidi ziyarət etmək oldu. Bu müqəddəs məkana ayaq qoyanda sanki bir anlıq Vüsallı günlərə qayıtdım. Vətən torpağının azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğlum gözlərim önündə canlandı. Vüsal mənim üçün həmişə canlıdır, həmişə diridir. Axı şəhidlər heç vaxt ölmür, onlar əbədi yaşayırlar".

Vüsal Allahyarov 2012-ci ilin aprel ayında ömrünün ən gözəl, xoşbəxt günlərindən birini yaşamışdı. Min qızın içindən seçib bəyəndiyi Aysel xanımla ailə həyatı qurmuşdu. Fatimə və Rəhimə adlı qız övladları dünyaya gəlmişdi. İndi onlar Vüsaldan qalmış ən qiymətli canlı yadigardırlar. Fatimə də, Rəhimə də məktəblidirlər. Onlar "İdrak" Liseyində oxuyurlar. Nərgiz xanım, Şakir kişi nəvələrini göz bəbəkləri kimi saxlayır, boylarını sevə-sevə oxşayırlar.

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş baş çavuş Vüsal Şakir oğlu Allahyarov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Doğmaları ilə söhbət edərkən onu da öyrəndik ki, Türkiyə DİN-in Jandarm Baş Komandanlığının Foça Komando Məktəbində Vətən müharibəsində şəhid olan azərbaycanlı məzunların xatirəsinə abidə ucaldılıb.

Ailənin yaşadığı evin yerləşdiyi küçəyə Vüsal Allahyarovun adı verilib. 44 günlük Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərmiş Vüsal Allahverdiyevin adını daşıyan küçə ilə geri dönürük. Küçənin başlanğıcında onun böyük portreti vurulub. Hər gün bu küçədən keçənlər Vüsalı xatırlayır, onun ruhuna dualar oxuyurlar. Azərbaycan xalqı müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş oğullarını heç vaxt unutmur. Onları daim böyük hörmət və ehtiramla xatırlayır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Döyüş meydanında sona çatan 30 illik ömür yolu

**O qəfil qapı zəngindən sonra Faiqin gülüşləri, zarafatları ilə dolub-daşan Həsənovların mənzili əbədi olaraq qəm-qüssəyə qərq oldu. Bundan sonra gələn heç bir gün daha əvvəlkitək olmayacaqdı...**

**Bir ömür yolu da 30 ilin sonunda beləcə sona çatdı... Vətəni canından çox sevən, onun yolunda şəhid olan Faiq şərəflə yaşadı, düşmənə qarşı igidliklə vuruşdu, adını qəhrəman kimi Azərbaycan tarixinə yazdı.**

**"Dedi mən gedirəm, ana. Bu dəfə də səni çox gözlətməyəcəyəm. Məni möhkəm qucaqlayıb, öpdü və getdi. Müharibəyə getdiyini başa düşmədim. Qapıya yaxınlaşanda geri baxdı, qayıdıb məni bir də bərk-bərk qucaqladı. Və getdi... əmisinin, dayısının başladığı işi bitirməyə getdi...", - deyir anası Yeganə xanım.**









### Cəbhəyə könüllü yollandı

Xüsusi təyinatlı gizir Faiq Hüseyn oğlu Həsənov 1990-cı il iyulun 28-də Bakı şəhərində dünyaya gəlib. Səbail rayonundakı 190 saylı orta məktəbi bitirib. Yeniyetməlik yaşlarından idmana həvəslə yanaşıb, fiziki hazırlığına daim diqqət yetirib.

2008-2012-ci illərdə Faiq Mingəçevir Dövlət Universitetində ali təhsil alıb, iqtisadiyyatın tənzimlənməsi ixtisasına yiyələnib. O, 2012-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Həmin vaxtdan etibarən gələcək həyatını iqtisadçı peşəsinə deyil, hərbi xidmətə bağlamaq haqqında fikirlərini doğmaları ilə bölüşüb. 2015-ci ildən Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında əzmkarlığı ilə fərqlənib.

Hərbçi peşəsi, xüsusi təyinatlıların xidməti onun qəlbində rəğbət doğururdu. Bu da əbəs deyildi. Birinci Qarabağ müharibəsi zamanı ön cəbhəyə könüllü yollanaraq torpaqlarımızın müdafiəsində şəhid olmuş əmisi Elşən Həsənovun, 1989-1991-ci illərdə Qazax-Ağstafa bölgəsində erməni işğalçılarına qarşı vuruşmuş dayısı qazi Mahir Rzayevin keçdikləri çətin sınaqlar gəncin həyata baxışlarına təsirsiz qalmamış, onun üçün vətənpərvərlik örnəyi olmuşdu.

### "Bu yerlərə ilk qədəm basmaq bizə qismət oldu"

Ailənin böyük övladı olan Faiq iki bacısına və qardaşına həm də ata əvəzi idi. 2017-ci ildə atası qəfil dünyasını dəyişəndən sonra böyük övlad kimi ailənin qayğılarını öz üzərinə götürmüşdü. Yeganə xanım deyir ki, atasının yoxluğunu ailəsinə hiss etdirməmək üçün dəridən-qabıqdan çıxırdı: "Bizi hər zaman düşünən, qürurlandıran övlad idi. Heç vaxt məni intizarda qoymaq istəmirdi. Elə sentyabrın sonunda gedəndə də "Ağcabədiyə təlimə gedirəm" dedi. İnandım..."

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Faiq döyüş əməliyyatlarına ilk cəlb olunanların sıralarında idi. O və silahdaşları müharibənin ilk günlərində Cəbrayıl-Füzuli rayonlarının ərazilərində çətin döyüş tapşırıqlarını yerinə yetiriblər. Faiq işğaldan azad edilən torpaqlarımızda irəliləyərkən "bu yerləri görmək və ilk qədəm basmaq bizə qismət oldu" deyib.

Oktyabrın 2-də Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə qapalı kəllə-beyin travması alan, eşitmə qabiliyyətini itirən Faiq döyüş bölgəsindən təxliyə olunur. Füzuli rayonunun Əhmədbəyli kəndindəki hərbi hospitala yerləşdirilərək, burada müalicə alan Faiq yaralanması ilə bağlı yalnız dayısı Mahir Rzayevə xəbər verib. Anası narahat olmasın deyə ona bu barədə məlumat verilməsinə razı olmayıb. Hətta anası ilə telefonla danışarkən belə yaralandığını ona hiss etdirməyib. Anası Yeganə xanım oktyabrın 4-nə kimi oğlu ilə mütəmadi danışdığını deyir.

Hospitala gələn dayısı Bakıda müalicəsinin davam etdirilməsinin zəruriliyini, qoyulan diaqnozun ciddiliyini ona nə qədər söyləsə də, bütün təkidlərə baxmayaraq, Faiq döyüşlər başa çatanadək Bakıya getməyəcəyini bildirib. Həkimlər Faiqi hospitalda yalnız bir gün saxlaya biliblər. "Məni buraxın, mənə qulağım lazım deyil. Əlim silah tutur, bəsimdir. Qala bilmərəm, uşaqlar döyüşdədir" deyib.

Dayısı nə qədər təkid etsə də, onu inadından döndərə bilməyib: "Nə etdim, qayıtmadı. Elə hey deyirdi ki, sən o vaxtı şəhid olmadın, morqdan diri çıxdın. Mən şəhid olacam. Gecə qalmaq üçün Ağdama getdim. Səhər qayıdacaqdım. Gecə hospitala yaralı gətiriblər, sürücü qayıdanda ordakılardan soruşub ki, o tərəfə gedən varsa, gəlsin. Faiq də tələsik maşına minib döyüş bölgəsinə gedib".



Elə həmin gecə də silahdaşları ilə birgə Cəbrayıl-Füzuli rayonları istiqamətində ön mövqeyə lazımi təminat çatdırmaq, oradakı yaralıları çıxarmaq üçün gedərkən yolda düşmənin pusqusuna düşüb, şəhidlik zirvəsinə ucalıb.

Mərdliyi ilə seçilən şəhid gizir Faiq Həsənov Bakıda 2-ci Şəhidlər xiyabanında dəfn olunub. İgidlik və şücaət nümayiş etdirdiyinə görə, Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Qəhrəmanın şəhadətə ucalmasından dörd il ötür. Faiqin ömrü həyatının ən gözəl illərində yarıda qırılsa da, adı vətənin hünər tarixinə əbədi həkk olundu. Vətən üçün yaşanan ömür heç zaman unudulmur, insanların yaddaşında daim qalır. Əgər bu gün torpaqlarımız azadlığa qovuşubsa, bu, Faiq kimi igid oğullarımızın şücaəti sayəsindədir.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Sumqayıt Yaşayış Kompleksində və Lənkəran Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

# ELAN

Sumqayıt şəhəri, Bulvar küçəsi, 197 ünvanında yerləşən Sumqayıt Yaşayış Kompleksi üzrə 392 mənzilin, Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi, 303 ünvanında yerləşən Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzilin, ümumilikdə 544 mənzilin satışı 06 dekabr 2024-cü il tarixində saat 11:00-da başlayacaq və 14 dekabr 2024-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 10 dekabr 2024-cü il tarixində saat 11:00-da başlayacaq və 14 dekabr 2024-cü il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Sumqayıt Yaşayış Kompleksi üzrə 392, Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzil olmaqla, ümumilikdə 544 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Sumqayıt Yaşayış Kompleksi üzrə - 27.09.2021-ci il tarixli 31957 nömrəli və 24.01.2022-ci il tarixli 32415 nömrəli;

Lənkəran Yaşayış Kompleksi üzrə - 25.11.2021-ci il tarixli 32210 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 2 saylı Sumqayıt Ərazi İdarəsi və 10 saylı Lənkəran Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

**Sumqayıt Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 458.3 | 12 | 1 | 2 | 24 | 59.9 | 71.8 | "HN CONSTRUCTION" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi, ev 185, mənzil 14 | 22-09-24 |
| | | | | 3 | 24 | 78.5 | 93.7 | | |
| 3 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | | 22-09-24 |
| 4 | 423.6 | 9 | 1 | 2 | 19 | 59.7 - 60.9 | 72.7 - 74.7 | "CONCO" QSC, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 81A, mənzil 1/2/3. | 31-05-24 |
| | | | | 3 | 17 | 78.1 | 93.8 | | |
| 5 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-05-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 6 | 413.7 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | | 31-05-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 7 | 412.6 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 31-03-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 8 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-03-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 9 | 438.9 | 9 | 1 | 2 | 10 | 59.7 - 60.8 | 72.1 - 74.7 | | 31-03-24 |
| | | | | 3 | 26 | 78.1 - 82.4 | 93.8 - 99.5 | | |
| 10 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | "HN CONSTRUCTION" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi, ev 185, mənzil 14 | 22-09-24 |
| 11 | 438.3 | 12 | 1 | 2 | 12 | 59.7 | 71.8 | | 22-09-24 |
| | | | | 3 | 36 | 77.2 - 78.5 | 93.4 - 93.7 | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 852.26 | 9 | 2 | 3 | 1 | 72.9 | 85.3 | "Araz İnşaatçı" MMC, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 2 | 810.2 | 9 | 2 | 3 | 11 | 72.9 | 85.3 | | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 3 | 719.34 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | "Merkuri-İnşaat" MMC, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143 | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 4 | 723.55 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 5 | 503.57 | 9 | 1 | 3 | 36 | 75.1 - 76.7 | 89.4 - 91.3 | | 01-03-24 |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

**Qeyd:** "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin **ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.**

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

2 otaqlı mənzillərin qiyməti – **59 700** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **77 200** manatdan başlayır.

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

3 otaqlı mənzillərin qiyməti – **61 965** manatdan,

4 otaqlı mənzillərin qiyməti – **84 150** manatdan başlayır.

**Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.**

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **257-262 manat** | **332-354 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | **267-281 manat** | **362-419 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 2 | 59 700 | 5 970 | **53 730** |
| 3 | 77 200 | 7 720 | **69 480** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 3 | 61 965 | 6 196 | **55 769** |
| 4 | 84 150 | 8 415 | **75 735** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəsmi internet səhifəsinə (www.mida.gov.az) daxil olaraq Sumqayıt və Lənkəran Yaşayış Komplekslərində satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla www.mida.gov.az internet səhifəsində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (5 saylı Bakı, 1 saylı Sumqayıt və Lənkəran regional), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

**Qeyd:** "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.

# Füzuli şəhərində 8 Noyabr - Zəfər Gününə həsr edilmiş tibbi sosial aksiya keçirilib

**Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin, "Ağdam, Füzuli və Xocavənd rayonlarında bərpa, tikinti və idarəetmə xidməti" və "Avita" MMC şirkətinin birgə təşkilatçılığı ilə Füzuli şəhərində qazi və şəhid ailələrinin üzvləri və sakinlər üçün 8 Noyabr - Zəfər Gününə həsr edilmiş növbəti tibbi sosial xeyriyyə aksiyası keçirilib.**



Tədbirdə Mərkəzi Gömrük Hospitalının tibb personalı, "Ağdam, Füzuli və Xocavənd rayonlarında bərpa, tikinti və idarəetmə xidməti"nin nümayəndələri və Füzuli şəhər sakinləri iştirak ediblər.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini, tibb üzrə fəlsəfə doktoru, dosent İsmayıl Əfəndiyev tədbirdə çıxış edərək bildirib ki, tibbi aksiyada Füzuli şəhər sakinlərinə, qazi və şəhid ailəsi üzvlərinə tibbi xidmətlərin göstərilməsi üçün yüksəkixtisaslı tibb heyəti və müasir tibbi avadanlıqlarla təchiz olunmuş mobil hospital ezam olunub. Qeyd edilib ki, 8 Noyabr - Zəfər Günü ərəfəsində işğaldan azad olunmuş Füzuli torpağında gömrükçülər, Mərkəzi Gömrük Hospitalının həkimləri öz vəzifə borclarını yerinə yetirərək ehtiyacı olanlar üçün müayinələr keçirəcək, lazım olan müalicələri təyin edəcək və müalicə əsasında resept üzrə yazılmış dərmanlar paylayacaqlar.

Mərkəzi Gömrük Hospitalının yüksəkixtisaslı həkimləri Şəbnəm Əlirzayeva, Təranə Göyüşova, Nazilə Hüseynova, Mehriban Məmmədova, Lalə İbrahimova, Tükəzban Abdullayeva, Emin Allahverdiyev, Samir Mustafayev, Nigar Məmmədova, Vüsal Cəfərov, Aybəniz Zeynalova, Könül Həsənova və Elxan Qasımov rayon sakinlərinə kardioloji, uroloji, endokrinoloji, pediatrik, radioloji, nevroloji, ginekoloji, oftalmoloji və cərrahi xidmətlər göstəriblər. USM, EKQ, EXO və digər tibbi avadanlıqlar vasitəsilə müayinə zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Həmçinin xeyriyyə aksiyası zamanı müayinə keçən sakinlərə resept üzrə yazılmış dərman preparatları paylanılıb. Ümumilikdə aksiyada 250 nəfərə tibbi xidmət göstərilib.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən müxtəlif illərdə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi və Füzuli rayonunun Horadiz şəhərində, Zəngilanın Ağalı kəndində, Tərtərdə və rayonun Talış kəndində, Lənkəranda, Astarada, Yevlaxda və digər regionlarda qazi və şəhid ailəsi üzvləri və əhali üçün sosial tibbi aksiyalar davamlı olaraq keçirilib.

# Moskvada müasir Azərbaycan şairlərinin poeziyasına həsr olunmuş ədəbi axşam keçirilib

**Moskvadakı M.İ.Rudomino adına Xarici Ədəbiyyat Kitabxanasında Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin və Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə müasir Azərbaycan şairlərinin poeziya nümunələrinə həsr olunmuş ədəbi axşam keçirilib.**







AZƏRTAC xəbər verir ki, illik "Noç iskusstv" ("İncəsənət gecəsi") aksiyası çərçivəsində keçirilən tədbiri Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin direktor müavini Nazim İsmayılzadə açıb.

Sonra Azərbaycan gənclərinin dörd nümayəndəsi səhnədə öz şeirləri və digər müasirlərinin əsərlərindən ibarət proqramla çıxış ediblər.

Şair və qiraətçi Günel Miriyeva "İnsan həyatı" adlı orijinal əsərini təqdim edib. Gecəni sətirləri artıq internetdə və müasir poeziya pərəstişkarları arasında kifayət qədər tanınan şairlər - Qurban Xalıqverdili və Kamal Əliyev davam etdiriblər. Sonda səhnəyə Rəna Soltanova çıxıb. O, Leyla Əliyeva, Ramiz Rövşən və Redyard Kiplinqin əsərlərini məharətlə təqdim edib. Şeirlər və iştirakçıların yüksəksəviyyəli qiraət məharəti tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Peşəkar fəaliyyətin tamamilə fərqli sahələrindən olan gənc şairləri və qiraətçiləri poeziyaya olan sevgi birləşdirib. Artıq uzun illərdir ki, onlar müxtəlif kəlmələrlə, amma bir ağızdan - poeziyanın səsi ilə danışırlar.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə
2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -187,20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat
6 aylıq - 93,60 (doxsan üç manat altmış qəpik) manat
3 aylıq - 46,80 (qırx altı manat səksən qəpik) manat
1 aylıq - 15,60 (on beş manat altmış qəpik) manat


AZƏRBAYCAN
Şanlı Zəfərin Böyük qayıdış mərhələsi
BMT-dən dünya ölkələrinə çağırış
İrəvan təşvişdə: Ermənistanda böyük müharibə başlayacaq

Hörmətli oxucular!
Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# Tramp, yoxsa Harris?!

## ABŞ-də prezident seçkiləri keçirilir

**Bu gün ABŞ-nin 47-ci prezidenti seçilir. 1845-ci ildən bəri ölkədə prezident seçkiləri həmişə noyabrın ilk çərşənbə axşamı keçirilir.**



Bu il proses noyabrın 5-nə təsadüf edib. Prezident seçkilərində səsvermə seçki məntəqəsində şəxsən və ya poçt vasitəsilə ümumxalq səsverməsi günü və ya əvvəlcədən həyata keçirilə bilər. Xaricdə xidmət edən hərbi qulluqçular da əvvəlcədən səs verirlər.

ABŞ prezidentliyinə iki əsas namizəd var: keçmiş dövlət başçısı və Respublikaçılar Partiyasının namizədi 78 yaşlı Donald Tramp və hazırkı vitse-prezident, Demokratlar Partiyasının namizədi Kamala Harris (60 yaş).

Əvvəlcə Prezident Co Bayden Demokratlar Partiyasından namizəd olmalı idi, lakin Trampla uğursuz iyun debatından sonra o, namizədliyini geri götürüb.

Son sorğuların nəticələri göstərir ki, ABŞ prezidentliyinə Respublikaçılar Partiyasından namizəd Donald Tramp və onun demokrat rəqibi Kamala Harrisin reytinqləri bərabərdir - amerikalı seçicilərin 49 faizi sorğularda hər ikisinə eyni dərəcədə etimad göstərir.

"The Wall Street Journal" qəzeti yazıb ki, Tramp qalib gələrək Ağ Evə qayıdarsa, Amerika siyasətində "özünün möhkəmliyini və amerikalıların adından danışmaq iqtidarında olduğunu" sübut edəcək.

80 milyona yaxın amerikalının erkən səsvermədə iştirak etdiyi bildirilib. Donald Trampın əksər əsas ştatlarda liderlik etdiyi məlum olub.

Bukmeker kontorlarının fikrincə, Trampın prezident seçkilərində qalib gəlmək şansı Harrisdən daha çoxdur. Onların hesablamalarına görə, keçmiş dövlət başçısının qalibgəlmə ehtimalı 60 faizdən yuxarı, Kamala Harrisin şansı isə 40 faizdən aşağıdır. Qeyd edək ki, ABŞ-də təxminən 168 milyon seçici mövcuddur.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# İqlim dəyişikliyi sağlamlığımızı da təhdid edir

**Bu gün planetimizin üzləşdiyi ən böyük problemlərdən biri iqlim dəyişmələri nəticəsində baş verən qlobal istiləşmə və onun yaratdığı fəsadlardır. Son bir neçə yüzillikdə baş vermiş sənaye inqilabı nəticəsində havaya atılan istixana qazlarının miqdarı artıb. Nəticədə havanın keyfiyyətinin aşağı düşməsi insanların səhhətinə təsirsiz ötüşməyib.**



Dünyada sürətlə dəyişən iqlim insan sağlamlığına birbaşa və ya dolayı yolla təsir edir. Birbaşa təsirlər isti hava dalğalarını, dəniz səviyyəsinin yüksəlməsini, yağıntı səbəbindən yaranan su basqınlarını, quraqlığı və bu kimi təbii fəlakətlər fonunda yaralanmaları, xəstəlikləri və ölümləri əhatə edir. Dolayı təsirlər isə mühitdəki dəyişikliklər vasitəsilə baş verir. Yağışın, fırtınanın, habelə dəniz temperaturunun artması daha çox su ilə əlaqədar xəstəliklərə yol açır.

"Lancet Countdown" jurnalının iqlim dəyişikliyi və sağlamlığa dair illik hesabatına əsasən, iqlim dəyişikliyinin yaratdığı təhlükələr rekord həddə çatıb. "Lancet Countdown" layihəsi Paris Sazişinin qüvvəyə mindiyi ildə yaradılıb. Onun məqsədi iqlim dəyişikliyinin insan sağlamlığına qlobal, regional və milli səviyyədə təsirini hər il təhlil etməkdir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Ümumdünya Meteorologiya Təşkilatı da daxil olmaqla 57 akademik qurum və 122 tədqiqatçı tərəfindən hazırlanan 2024-cü il hesabatında 8 illik monitorinq dövründə ən narahatedici nəticələr təqdim edilib. Məlum olub ki, iqlim dəyişikliyi ilə bağlı sağlamlıq risklərini izləyən 15 göstəricidən 10-u narahatlıq doğuran yeni rekord göstəricilərə çatıb.

Məlumatlar iqlimin sürətlə dəyişməsi səbəbindən insan rifahı, sağlamlığı və həyatı üçün böyük təhlükələrin olduğunu göstərir. 2023-cü il dünyada daimi quraqlıqlar, ölümcül isti hava dalğaları, meşə yanğınları, tufanlar və daşqınlar ilə insanların sağlamlığına, həyatına və yaşayış vasitələrinə dağıdıcı təsir göstərib. Quraqlıq və toz fırtınaları kimi ekstremal təbii fəlakətlər getdikcə intensivləşir və milyonlarla insanın həyatını təhlükə altına alır.

Yüksək temperatur xüsusilə yaşlı insanlara və xroniki xəstəliyi olanlara mənfi təsir edir. Belə ki, 65 yaşdan yuxarı insanlar arasında istidən ölüm halları 1990-cı illərlə müqayisədə rekord səviyyədə artaraq 167 faizə çatıb. Bundan başqa, isti hava fiziki aktivliyə və yuxunun keyfiyyətinə də mənfi təsir göstərir. Bu da öz növbəsində fiziki və psixi sağlamlıqda problemlər yaradır. 2019-2023-cü illər arasında ekstremal hava hadisələri nəticəsində iqtisadi itkilərin ümumi illik dəyəri 227 milyard dollara çatıb.

Son 10 ildə dünyanın quru ərazisinin 61 faizində 1961-1990-cı illərin orta göstəricisi ilə müqayisədə ekstremal yağıntılı günlərin sayı artıb. Bu isə daşqın, sel, yoluxucu xəstəlik və suyun çirklənməsinə səbəb olub. Paralel olaraq, müxtəlif regionlarda baş verən quraqlıqlar nəticəsində 2022-ci ildə 124 ölkədə 151 milyondan çox insan ciddi qida çatışmazlığı ilə üzləşib. Mütəxəssislər bunun indiyədək qeydə alınmış ən yüksək göstərici olduğunu qeyd edirlər. 2030-cu və 2050-ci illər arasında iqlim dəyişikliyinin fəsadları insanlar üçün qida çatışmazlığından, malariya, ishal və isti stresdən əlavə, hər il təxminən 250 min insanın ölümünə səbəb ola bilər.

Temperaturun yüksəlməsi və yağıntıların artması ölümcül yoluxucu xəstəliklərin geniş yayılmasına şərait yaradıb. Ötən il 80-dən çox ölkədə 5 milyondan çox danq xəstəliyi (tropik və subtropik bölgələrdə geniş yayılmış virus infeksiyası) qeydə alınıb ki, bu da ən yüksək göstəricidir. Yüksək temperatur, baş-bel ağrıları və qan dövranının pozulması ilə müşayiət olunan bu xəstəliyin təxminən 4,1 milyonu və ya 80 faizi Amerika bölgəsinin payına düşür.

Araşdırmalar da göstərir ki, antropogen təsirlər nəticəsində daha da genişlənən iqlim dəyişmələrinin fəsadları ən çox planetin sakinlərinə təsir edir. Elə buna görə də hər kəs məsuliyyətini dərk edərək qlobal istiləşmənin təsirlərinin minimuma endirilməsinə çalışmalıdır.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda noyabrın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün ikinci yarısında bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi əsəcək, gündüz güclü şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 6-9°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunundan 769 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə və gündüz 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Dolu düşəcəyi, şimşək çaxacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 13-18° isti, dağlarda gecə 0-3° şaxta, yüksək dağlıq ərazilərdə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntı tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, dağlıq ərazilərdə 2° şaxta, gündüz 12-17° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° isti, bəzi yerlərdə 2° şaxta, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6° isti, dağlıq ərazilərdə 3° şaxta, gündüz 10-15° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 12-16° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhərdən dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Dolu düşəcəyi, şimşək çaxacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 10-15° isti, dağlarda gecə 0-3°, yüksək dağlıq ərazilərdə 3-8° şaxta, gündüz 3-8° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-8°, gündüz 13-18° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı, axşam dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 13-18° isti, dağlarda gecə 2-5°, gündüz 5-9° isti olacağı gözlənilir.

# İndoneziyada vulkan püskürməsi nəticəsində on nəfər həlak olub

**İndoneziyada vulkan püskürməsi nəticəsində on nəfər həlak olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə ANTARA Xəbər Agentliyi məlumat yayıb. Bildirilib ki, püskürmə məşhur turist adalarından biri olan Floresdə yerləşən 1703 metrlik əkiz vulkan olan Levotobi Laki-Laki dağı ərazisində baş verib.

Ölkənin Fəlakətlərin Azaldılması Agentliyinin mətbuat katibi Əbdül Muhari ölənlərin sayını təsdiqləyərək, vulkan püskürmələri nəticəsində 10 min 295 nəfərin zərər çəkdiyini açıqlayıb. İndoneziyanın vulkanologiya agentliyinin məlumatına görə, vulkan nəticəsində bəzi taxta evlər yanıb, kəndlərə ziyan dəyib. Agentlik xəbərdarlıq səviyyəsinin ən yüksək həddə olduğunu vurğulayıb.

Qeyd edək ki, İndoneziyada 400-dən çox vulkan var, onlardan azı 129-u aktivdir, 65-i isə təhlükəli kimi təsnif edilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi "Azərbaycan" İstilik-Elektrik Stansiyasının direktoru Təhmasib Hüseynova əzizi

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4218
Sifariş 2558
Qiyməti 60 qəpik